31 may 2019 №39 (1624)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## UNESCO-nun Dünya İrs Komitəsinin Bakı sessiyasına hazırlıq davam edir

Məlum olduğu kimi, 30 iyun – 10 iyul tarixində Bakıda UNESCO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyası keçiriləcək. Azərbaycan Respublikası 2015-ci ildən Dünya İrs Komitəsinin üzvüdür və 2019-cu ildə komitəyə sədrlik edir.

Azərbaycan Respublikasının Mədəniyyət naziri Əbülfəs Qarayev Dünya İrs Komitəsinin 43-cü sessiyasının sədri qismində tədbirə hazırlıq məsələlərinin müzakirəsi və təşkilatın baş qərargahında keçiriləcək informasiya sessiyasında iştirak etmək məqsədilə Parisə səfər edib.

Səfər çərçivəsində nazir ilk olaraq UNESCO-nun Baş direktorunun mədəniyyət üzrə müavini Ernesto Rodrigez Ottone ilə görüşüb. Görüşdə Azərbaycan ilə UNESCO arasında əlaqələrin cari vəziyyəti, Dünya İrs Komitəsinin 43-cü sessiyasına hazırlıq və sessiyada müzakirəsi gözlənilən məsələlər barədə fikir mübadiləsi aparılıb.

*davamı səh. 2-də*

## Regionlarda vətəndaşların növbəti qəbulu keçirilib

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin və onların müavinlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən, mayın 24-də Azərbaycan Respublikasının Mədəniyyət naziri Əbülfəs Qarayev Şamaxı rayon Heydər Əliyev Mərkəzində Şamaxı və Qobustan rayonlarından olan vətəndaşları qəbul edib.

Mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev İsmayıllı rayon Heydər Əliyev Mərkəzində İsmayıllı və Qəbələ rayonlarından, nazir müavini Rafiq Bayramov Ağsu rayon Heydər Əliyev Mərkəzində Ağsu rayonundan olan vətəndaşları qəbul ediblər.

*davamı səh. 4-də*

## Uşaqların bayramı münasibətilə xeyriyyə tədbiri

Mayın 30-da Nizami Kino Mərkəzində 1 iyun – Beynəlxalq Uşaqların Müdafiəsi Günü münasibətilə xeyriyyə tədbiri keçirildi.

Mədəniyyət Nazirliyi və Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə gerçəkləşən tədbirin məqsədi uşaqları sevindirməklə bərabər, onların öz bacarıq və istedadlarını nümayiş etdirmələrinə şərait yaratmaqdan ibarətdir.

Xeyriyyə tədbirinə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, "Salnaməfilm" studiyası və "Ulduz" şokolad fabriki də öz sovqatları ilə gəlmişdilər. Musiqi, əyləncə, şirniyyatla bol olan aksiyada böyük sevinc yaşayan fidan balalar həm əyləndilər, həm də maarifləndilər.

*davamı səh. 2-də*

# Milli şüurda dönüş və özünüdərkə yol açan adib

### Xalq yazıçısı İsmayıl Şıxlının 100 illik yubileyi qeyd olundu




Mayın 30-da Azərbaycan Dövlət Akademik Filarmoniyasında XX əsr ədəbiyyatımızın görkəmli nümayəndəsi, Xalq yazıçısı İsmayıl Şıxlının (1919-1995) 100 illik yubileyinə həsr olunmuş gecə keçirildi.

Mərasimdə dövlət rəsmiləri, ədəbiyyat, mədəniyyət, incəsənət və ictimaiyyət nümayəndələri iştirak edirdi.

Qonaqlar əvvəlcə filarmoniyanın foyesində İsmayıl Şıxlının həyat və fəaliyyətini, yaradıcılığını əks etdirən foto və kitab sərgisi ilə tanış oldular.

Tədbirdə çıxış edən mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev dövlətimizin mədəniyyət, incəsənət, elm və ədəbiyyat xadimlərinə göstərdiyi diqqət və qayğıdan danışdı. Diqqətə çatdırdı ki, yubiley gecəsi İsmayıl Şıxlının 100 illiyi haqqında Prezident İlham Əliyevin müvafiq sərəncamına uyğun olaraq təşkil edilib. Vurğulandı ki, ölkə başçısı bu il bir sıra ədiblərimizin yubileylərinin keçirilməsi haqqında sərəncamlar imzalayıb və bu, dövlət rəhbərliyinin ədəbiyyata, mədəniyyətə münasibətini əks etdirir.

Vaqif Əliyev İsmayıl Şıxlının zəngin yaradıcılığından söhbət açaraq onun Azərbaycan ədəbiyyatına verdiyi töhfələrdən danışdı. Qeyd etdi ki, Xalq yazıçısı koloritli xarakterlər və yüksək mənəvi-əxlaqi keyfiyyətlərə malik zəngin yaradıcılığı ilə Azərbaycan xalqının bədii fikir salnaməsinə yeni parlaq səhifə yazmış söz ustalarındandır: "Ədibin xüsusilə məşhur "Dəli Kür" romanı ictimai və milli şüurda dönüşə və özünüdərkə yol açan mühüm ədəbi-mədəni hadisə kimi qiymətləndirilir. İsmayıl Şıxlı yaradıcılığı bədii dilin obrazlılığı, daxili aləmin təsvirinin genişliyi və əlvanlığı ilə seçilir".

Qeyd edildi ki, xalqımızın taleyüklü məsələlərinə daim vətəndaş, ziyalı mövqeyi nümayiş etdirmiş İsmayıl Şıxlının fəaliyyəti bütövlükdə azərbaycançılıq məfkurəsinə sədaqətin və ənənəvi dəyərlərə ehtiramın bariz nümunəsidir. Onun əsərləri milli düşüncəmizin inkişafına töhfə verən bədii nümunələrdir və hər zaman aktuallığını qoruyub saxlayacaq.

Vaqif Əliyev onu da diqqətə çatdırdı ki, Mədəniyyət Nazirliyi tərəfindən İsmayıl Şıxlının biblioqrafiyası çap olunub, onun haqqında elektron məlumat bazası hazırlanıb. Yaxın vaxtlarda ədibin "Ölən dünyam" əsəri rus dilində nəşr olunacaq.

*davamı səh. 2-də*

# "Kitab sənəti" müsabiqəsinin baş mükafatını Azərbaycan kitabı qazandı

Mayın 30-da Milli Kitabxanada MDB-nin XVI "Kitab sənəti" Beynəlxalq müsabiqəsinin münsiflər heyətinin iclası keçirildi.



İclası Milli Kitabxananın direktoru Kərim Tahirov açdı. O, iştirakçı ölkələrin nümayəndələrini salamlayaraq kitab sənəti üzrə belə bir müsabiqənin keçirilməsini təqdirəlayiq hal kimi dəyərləndirdi. Bildirdi ki, bu cür müsabiqələr kitab çapı sahəsində təcrübə mübadiləsinə də müsbət təsir göstərir.

Mədəniyyət Nazirliyinin Kitab dövriyyəsi və nəşriyyatlarla iş şöbəsinin əməkdaşı Elbəy Əli diqqətə çatdırdı ki, MDB-nin Dövri mətbuat, kitab nəşri, yayımı və poliqrafiya sahəsində əməkdaşlıq üzrə Dövlətlərarası Şurasının 28-29 noyabr 2018-ci ildə Düşənbədə keçirilmiş iclasında 2019-cu ildə Azərbaycanın Şuraya sədrliyi haqqında qərar qəbul edilib. Sədrlik çərçivəsində XVI "Kitab sənəti" Beynəlxalq müsabiqəsinin münsiflər heyətinin iclası Bakıda keçirilir. İclasda iştirak etmək üçün Rusiya, Qazaxıstan, Qırğızıstan, Belarus və Tacikistandan nümayəndələr gəlib.

Bildirildi ki, müsabiqədə Azərbaycan, Rusiya, Qazaxıstan, Qırğızıstan, Belarus, Tacikistan və Türkmənistanın nəşrləri müxtəlif nominasiyalar üzrə mükafatlar üçün yarışır.

Daha sonra açıq səsvermə yolu ilə hər nominasiya üzrə qalib kitabların seçimi başlandı. Hər bir ölkənin nəşr məhsulları haqqında ətraflı məlumat iştirakçı ölkələrin nümayəndələrinə təqdim edildi. Münsiflər hər bir nəşrlə bağlı müzakirələr apardılar.

Qeyd edək ki, ölkəmiz hər il "Kitab sənəti" Beynəlxalq müsabiqəsində uğurla iştirak edir. Budəfəki müsabiqəyə Azərbaycandan 9 nominasiya üzrə 14 adda kitab təqdim olunub.

Müzakirələr zamanı bildirildi ki, müsabiqəyə müxtəlif janr və tərtibatlarda kitablar təqdim olunub. Eyni zamanda kitabların dizaynı, mövzusu da nəzərə alınır.

Sonra qalib nəşrlər müəyyən olundu.

Səsvermənin nəticələrinə əsasən, Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasının nəfis tərtibatlı nəşri ("Şərq Qərb" nəşriyyatı) müsabiqənin Qran-pri mükafatına layiq görüldü. Bununla da ölkəmiz ilk dəfə bu müsabiqənin baş mükafatını qazanmış oldu.

Bundan əlavə, "Birlik" nominasiyası üzrə "Qara Qarayevin "Yeddi gözəl" baletinin səhnə həyatının tarixi" nəşri (Natalya Dadaşova) I yerə, Mir Cəlalın "Publisistika" və "Ədəbi tənqid" kitabları xüsusi diplomla mükafatlandırıldı.

"Ölkəm" nominasiyasında "Vətənim Azərbaycan" (Aydın Aslanov və Rauf Hüseynzadə - "Şərq-Qərb" nəşriyyatı) kitabı II, "Uşaqlar və gənclər üçün kitab" nominasiyası üzrə "Klassiklərin əsərlərindən seçmələr" ("Renessans – A" nəşriyyatı) kitabı I yerə layiq görüldü.

*davamı səh. 2-də*



## Bizə yahu söylədən Mark...

Mən bilmirəm, yəhudi dilində Eliyahu soyadının son iki hecası ayrılıqda nəsə bir anlam ifadə edir, yaxud elə bu dilin sözyaratma qanunlarına görə soyad bildirən bir sonluq şəkilçisidir?

Amma illərdən bəri Mark Eliyahunu internet üzərindən dinləyə-dinləyə bu fikrə gəlmişəm ki, onun Eliyahu soyadını daşıması bizim Markı dinlədikdən sonra "yahu, bu nə ecaz!" deməyimiz üçünmüş! Hətta onu da düşünürdüm ki, bu da qismətdəndir: yüzlərlə insan sənətdə özünü realizə etmək, uğur qazanmaq istəyənlər arzuları ilə səsləşən təxəllüs seçmək hayında ikən, Yaradan özü Marka hələ doğulmamışdan qismətinə yazdığı istedada yaraşan soyadı bəxş edib.

*davamı səh. 5-də*

## Tariximizin qaranlıq səhifələrinə həqiqət işığı

Mayın 24-də Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin (DSX) inzibati binasında "Siyasi Repressiya Qurbanları Muzeyi"nin açılış mərasimi keçirildi.



Tədbirdə Azərbaycan Respublikası Prezidentinin hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov, mədəniyyət naziri Əbülfəs Qarayev, Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-polkovnik Mədət Quliyev, Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev, Ali Məhkəmənin sədri Ramiz Rzayev, İnsan Hüquqları üzrə Müvəkkil Elmira Süleymanova və digər rəsmilər, ədəbiyyat, elm xadimləri, Milli Məclisin deputatları iştirak edirdi.

*davamı səh. 5-də*

## Uşaq kinosunun mahiyyəti

Kinematoqraf yarandığı gündən mövzuların müxtəlifliyinə, ssenarilərin məntiqinə, cərəyanların zənginliyinə görə yaş məhdudiyyəti olmadan hər kəsin sevimlisinə çevrildi.

Bütün dövrlərdə gündəmdə qalmağa iddialı olan "sehrli güzgü" bir üstünlüyü də onda qazandı ki, zamanın aktuallığına istinadən auditoriya toplamağa müvəffəq oldu. Tədricən ekran hadisələrində uşaqların həyatından bəhs edən və ya uşaqlar üçün nəzərdə tutulan filmlər də istehsal edilməyə başlandı. Əslində, bu, kinonun ümdə məqsədi deyildi. Çünki texniki nailiyyətin ilkin versiyalarında hadisələrin gedişatında uşaqların həyatının bilavasitə filmlərə yansıdığını, rejissorların sonralar bu mövzuya daha ciddi yanaşdığını görürük.

Azərbaycan kinosunda uşaq həyatından bəhs edən ilk ekran əsəri görkəmli kinorejissor Mikayıl Mikayılovun quruluş verdiyi "Lətif" (1930) filmidir. Filmdə Azərbaycan kəndlərinin birində yaşayan uşağın acınacaqlı taleyi əksini tapıb.

*davamı səh. 7-də*

### "Azərbaycanın 7 möcüzəsi" layihəsinə start verilib



*səh. 3*

### İyunun 1-dən 5-dək Lənkəran şəhərində Beynəlxalq teatr festivalı keçiriləcək

*səh. 2*



### "Nəsimi" baleti yenidən səhnədə

*səh. 4*

## Mədəniyyət xadimlərinə fəxri adlar və medal verilib

Prezident İlham Əliyev mayın 25-də Azərbaycan Respublikasının mədəniyyət xadimlərinə fəxri adların verilməsi haqqında sərəncam imzalayıb.

Sərəncama əsasən, Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə şairlər Vahid Əziz, Ramiz Rövşən və Musa Yaquba "Xalq şairi", yazıçı-dramaturqlar Kamal Abdulla, Natiq Rəsulzadə və Afaq Məsuda "Xalq yazıçısı" fəxri adları verilib.

Müğənnilər İlqar Muradov və Cavanşir Zeynallı "Xalq artisti", şair Vaqif Bayatlı Odər, yazıçı-dramaturqlar Elçin Hüseynbəyli və Firuz Mustafa "Əməkdar incəsənət xadimi" adlarına layiq görülüblər.

Bundan əlavə, Nadir Xasiyev, Cəmilə Kərimova, Qurban Məsimov, Qasım Nağıyev, Nurbəniz Niftəliyeva və Elmira Süleymanova "Əməkdar artist", Asim Əliyev, Vaqif Əlixanlı, Abbas Güləliyev və Rauf Məmmədova "Əməkdar mədəniyyət işçisi" fəxri adları verilib.

Dövlət başçısının mayın 25-də imzaladığı digər sərəncamla Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə Oksana Bulanova, Ənvər Əhmədov, Mansur Soltan (Qəniyev), Sabir Mustafayev, İltifat Saleh (Salayev) və Alina Talıbzadə "Tərəqqi" medalı ilə təltif olunublar.

## Xalq artisti Maqsud Məmmədov "Şöhrət" ordeni ilə təltif olunub

Prezident İlham Əliyev mayın 29-da Xalq artisti, tanınmış baletmeyster Maqsud Davud oğlu Məmmədovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb. Akademik Opera və Balet Teatrının aparıcı solisti olmuş sənətkar Azərbaycan mədəniyyətinin inkişafında xidmətlərinə görə təltif olunub. Qeyd edək ki, mayın 30-da Maqsud Məmmədovun 90 yaşı tamam olub.

## Türk dünyası təşkilatlarının rəhbərlərindən Azərbaycan Prezidentinə təbriklər

Respublika Günü münasibətilə müxtəlif ölkələrin dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların rəhbərləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təbrik məktubları göndəriblər. Türk dünyasını əhatə edən qurumların rəhbərləri də Azərbaycanın dövlət başçısını təbrik edərək xoş arzularını, qarşılıqlı əməkdaşlıqla bağlı ürək sözlərini ifadə ediblər.

"Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı Azərbaycan Respublikası ilə sıx mədəni əlaqələri, ölkənizin təşkilatımıza dəstəyini, ümumtürk mədəniyyətinin və dəyərlərinin təbliğində rolunu yüksək qiymətləndirir. Əmin ola bilərsiniz ki, TÜRKSOY ilə Azərbaycan Respublikası arasındakı yüksək səviyyəli mədəni əlaqələr bundan sonra da inkişaf etdiriləcək və Azərbaycanın zəngin mədəni irsi TÜRKSOY-un xətti ilə keçiriləcək beynəlxalq tədbirlərdə bundan sonra da layiqincə təmsil olunacaqdır", - deyə TÜRKSOY-un Baş katibi Düsen Kaseinovun məktubunda bildirilir.

"İnanıram ki, türkdilli ölkələr arasında mövcud olan əməkdaşlıq Sizin hərtərəfli dəstəyiniz sayəsində daha da inkişaf edəcək və güclənəcəkdir. Sizin təşəbbüsünüzlə yaradılan Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu bir beynəlxalq təşkilat kimi hər zaman ortaq dəyərlərimizin qorunması və dünyada təbliğ olunması istiqamətində səylərini davam etdirəcəkdir" – bu sözlər isə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyevanın təbrik məktubunda yer alıb.

Türkdilli Ölkələrin Parlament Assambleyasının baş katibi Altınbek Mamayusupov və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Bağdad Amreyev də Azərbaycan rəhbərini Respublika Günü münasibətilə təbrik ediblər.

## Lənkəranda teatr festivalı

"Azərbaycan teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramı çərçivəsində 1-5 iyun tarixində Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Lənkəran Şəhər İcra Hakimiyyəti və Azərbaycan Teatr Xadimləri İttifaqı ilə birgə Lənkəran şəhərində Beynəlxalq teatr festivalı keçiriləcək.

Festivalda Azərbaycan Dövlət Akademik Milli Dram, Azərbaycan Dövlət Gənc Tamaşaçılar, Azərbaycan Dövlət Kukla, Gəncə Dövlət Kukla, Qax Dövlət Kukla, Salyan Dövlət Kukla, Şuşa Dövlət Musiqili Dram, Bakı Uşaq və müstəqil fəaliyyət göstərən "Ol" teatrları çıxış edəcəklər.

## Gənc pianoçuların yarışması

Bakı Şəhər Mədəniyyət Baş İdarəsi və Beynəlxalq Muğam Mərkəzinin birgə təşkilatçılığı ilə iyunun 1-dən 5-dək Bakıda "Caspian etude" Beynəlxalq gənc pianoçular müsabiqəsi keçiriləcək.

16 yaşadək iştirakçılar arasında, dörd yaş kateqoriyasında keçiriləcək müsabiqədə musiqi və incəsənət məktəblərinin, ixtisaslaşmış musiqi təhsili müəssisələri və musiqi kolleclərinin tələbələri iştirak edəcəklər. Gənc istedadların çıxışlarını beynəlxalq münsiflər heyəti qiymətləndirəcək.

Ətraflı məlumatı http://www.caspianetude.az internet səhifəsindən əldə etmək olar.

## "Kitab sənəti" müsabiqəsinin baş mükafatını Azərbaycan kitabı qazandı

əvvəli səh. 1-də

"İllüstrasiya sənəti" nominasiyası üzrə "Yuxunun sehri" (Aytən Yadigarlı), "Mədəni dialoq" üzrə "Dədə Qorqud kitabı" (Vatikan nüsxəsi) ikinci yeri qazandı.

"Elm və innovasiya" nominasiyasında Əhəd Canəhmədovun "Mühəndisliyin fəlsəfəsi" kitabı I yerə, Şəmil Sadiqin "İsa Muğanna yaradıcılığı "İdeal" işığında" kitabı isə xüsusi diploma layiq görüldü.

"Məktəbli ədəbiyyatı və təhsil" nominasiyasında Müşfiq Xanın 6-11-ci siniflər üçün "Biologiya" nəşri birinci oldu, "Məktəblinin kitabxanası" seriyasından "Koroğlu" və "Dədə Qorqud" kitabları isə xüsusi diploma görüldü. Müsabiqənin "Art kitab" nominasiyası üzrə Çingiz Qacarın "Köhnə Şuşa" kitabı II yeri qazandı.

Qeyd edək ki, "Kitab sənəti" müsabiqəsinin mükafatları ənənəvi olaraq sentyabr ayında Moskvada keçiriləcək Beynəlxalq kitab sərgi-yarmarkasında təqdim olunacaq.

**L.AZƏRİ**

# UNESCO-nun Dünya İrs Komitəsinin Bakı sessiyasına hazırlıq davam edir

əvvəli səh. 1-də

Sonra UNESCO-nun Dünya İrs Mərkəzinin rəhbəri Mextild Rosslerin iştirakı ilə görüş keçirilib. Görüşdə Bakıda təşkil olunacaq 43-cü sessiyanın gündəliyində duran dünya mədəni və təbii irsinə dair namizədlik fayllarının vəziyyəti, sessiyanın sədrinin öhdəlikləri, prosedur qaydaları, tədbirin açılış mərasimi və digər məsələlər müzakirə edilib.

Nazir Əbülfəs Qarayev keçirilən görüşlərdə ölkəmizin bu mötəbər tədbirə xüsusi önəm verdiyi və sessiyanın təşkili ilə bağlı Azərbaycan Respublikasının Prezidenti tərəfindən Təşkilat Komitəsinin yaradıldığı, müvafiq iclasların keçirildiyi və hazırlıq işləri ilə bağlı prosesin lazımi səviyyədə getdiyi barədə məlumat verib.

Səfər zamanı, həmçinin Dünya İrs Mərkəzinin müvafiq nümayəndələri ilə ev sahibi ölkə olan Azərbaycan tərəfindən Əməliyyat qrupu arasında görüş keçirilib. Əməliyyat qrupunun rəhbəri, Mədəniyyət Nazirliyinin Aparat rəhbərinin müavini – Beynəlxalq əməkdaşlıq və innovativ inkişaf şöbəsinin müdiri Vasif Eyvazzadə 43-cü sessiyanın təşkilatçılığına cəlb edilmiş şirkətlərlə birgə sessiya və onun çərçivəsində təşkil ediləcək 35-ə yaxın tədbirin, Gənc Peşəkarlar Forumu və Abidə Menecerləri Forumuna hazırlığın vəziyyəti və texniki tələblərin icrası barədə məlumat verib.



### UNESCO baş qərargahında məlumat sessiyası

Mədəniyyət naziri Əbülfəs Qarayevin sədrliyi ilə UNESCO baş qərargahında Dünya İrs Komitəsinin 43-cü sessiyası ilə bağlı məlumat sessiyası keçirilib.

Nazir Əbülfəs Qarayev çıxış edərək müzakirəsi gözlənilən məsələlər barədə danışıb, sessiyanın təşkili ilə bağlı Təşkilat Komitəsinin yaradıldığını diqqətə çatdırıb.

Dünya İrs Komitəsinin 43-cü sessiyasının Əməliyyat qrupunun rəhbəri Vasif Eyvazzadə sessiyaya və onun çərçivəsində keçiriləcək tədbirlərə hazırlığın vəziyyəti barədə təqdimatla çıxış edib. Ölkəmizin mədəniyyəti və inkişafı ilə bağlı film nümayiş etdirilib. Qeyd edilib ki, Azərbaycan 23 iyun – 1 iyul tarixində Gənc Peşəkarlar Forumu, 26 iyun – 4 iyul tarixində Abidə Menecerləri Forumu və nəhayət, 30 iyun – 10 iyul tarixində Dünya İrs Komitəsinin 43-cü sessiyasının keçirilməsinə hazırdır.

Dünya İrs Mərkəzinin direktoru Mextild Rossler Azərbaycan tərəfinə təşəkkürünü bildirərək 43-cü sessiyanın gündəliyi, müzakirə olunacaq nominasiya sənədləri, büdcə və prosedur qaydaları ilə bağlı yeniliklər və s. barədə çıxış edib.

Sonda komitə üzvlərinin suallarına cavablandırılıb.

# Milli şüurda dönüş və özünüdərkə yol açan ədib

əvvəli səh. 1-də

Təhsil naziri Ceyhun Bayramov çıxış edərək İsmayıl Şıxlının Azərbaycan ədəbiyyatı tarixində mövqeyindən, zəngin bədii yaradıcılığından danışdı. Qeyd etdi ki, müəllif əsərlərində Azərbaycan xalqının milli düşüncə tərzini, onun psixologiyasını, dünyagörüşünü əks etdirməyə xüsusi diqqət yetirirdi. Bunula yanaşı, o bir vətəndaş kimi də Azərbaycanın ən çətin günlərində sözünü deməkdən çəkinməyib. 1990-cı ilin Qanlı Yanvar hadisələri zamanı əsl vətəndaş, ziyalı mövqeyi nümayiş etdirib.

Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar yaradıcılığa təzə başlayan gənclərin həmişə dayağı olmuş İsmayıl Şıxlının böyük ədib və



sözübütöv, mərd, cəsarətli bir insan kimi xarakterizə etdi. Bildirdi ki, İsmayıl Şıxlının təkcə "Dəli Kür" romanı onun XX əsr Azərbaycan ədəbiyyatının klassikləri sırasına düşməsinə kifayət edir. Bununla belə, görkəmli yazıçı bütün əsərlərində canlı obrazlar qalereyası yaradıb, orijinallığı ilə daim seçilib və oxucuların qəlbində özünə əbədi heykəl ucaldıb.

Xalq yazıçıları Çingiz Abdullayev, Elmira Axundova, Xalq şairi Ramiz Rövşən İsmayıl Şıxlı haqqında xatirələrini bölüşdülər. Bildirildi ki, öz təbiiliyi, xarakteri, mərdliyi və özünəməxsusluğu ilə xalq arasında böyük nüfuz qazanan mərhum sənətkar bu gün də əsl vətəndaş, əsl kişi, əsl ziyalı nümunəsi kimi xatırlanır.

Sonra görkəmli yazıçının həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olundu. Əsərlərindən parçalar oxundu, saz havaları səsləndi.

Sonda yazıçının ailəsi adından oğlu, Azərbaycan Jurnalistlər Birliyinin sədri Elçin Şıxlı çıxış edərək dövlət başçısına, tədbirin təşkilatçılarına və iştirakçılarına İsmayıl Şıxlı yaradıcılığına verilən dəyərə görə təşəkkürünü bildirdi.

**Fariz HÜSEYNOV**

# İlyas Əfəndiyevin ədəbi irsi və müasirlik

Mayın 30-da Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda "Xalq yazıçısı İlyas Əfəndiyevin ədəbi irsi və müasirlik" mövzusunda elmi sessiya keçirildi. Tədbir görkəmli ədibin anadan olmasının 105 illiyinə həsr olunmuşdu.

AMEA-nın vitse-prezidenti, Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli tədbiri açaraq yazıçının Azərbaycan ədəbiyyatı tarixində yeri və bədii yaradıcılığından danışdı. Bildirdi ki, İ.Əfəndiyev XX əsr Azərbaycan nəsrinin və dramaturgiyasının inkişafında mühüm rol oynayıb. Müəllifin "Söyüdlü arx", "Körpüsalanlar", "Dağlar arxasında üç dost", "Sarıköynəklə Valehin nağılı", "Geriyə baxma, qoca", "Üçatılan" və s. roman və povestləri, "Bahar suları", "Atayevlər ailəsi", "Sən həmişə mənimləsən", "Mənim günahım", "Unuda bilmirəm", "Məhv olmuş gündəliklər", "Mahnı dağlarda qaldı"



və s. pyesləri ideya-bədii cəhətdən qiymətli əsərlərdir. O, dram əsərləri ilə teatr sənətimizdə yeni bir mərhələ açıb və "İlyas Əfəndiyev teatrı" anlayışı yaranıb.

Xalq yazıçısı Elçin çıxış edərək atası ilə bağlı xatirələrini bölüşdü. Ədəbiyyat tarixi ilə əlaqədar bir sıra məsələlərə toxunan ədib İlyas Əfəndiyev yaradıcılığına göstərdiyi diqqətə görə Ədəbiyyat İnstitutuna təşəkkürünü bildirdi.

Filologiya elmləri doktoru, professor Şirindil Alışanlı "XX əsr tarixi prosesində İlyas Əfəndiyevin yeri" mövzusunda məruzəsində diqqətə çatdırdı ki, vaxtilə böyük söz ustadının yaratdığı obrazlar vasitəsilə oxuculara aşılamağa çalışdığı əsas keyfiyyətlər – insani borc, vətəndaş vəzifəsi, fərd və cəmiyyətin qarşılıqlı münasibəti, ailə və əxlaq, başərilik, millilik problemləri bu gün də aktuallığını, dəyərini qoruyub saxlayır.

Filologiya elmləri doktoru, professor Nizami Tağısoy "İlyas Əfəndiyevin nəsri" mövzusunda çıxış etdi. Bildirdi ki, İ.Əfəndiyev bədii yaradıcılığının ədəbi-estetik əhəmiyyəti, əsərlərinin uzunömürlülüyü baxımından ədəbiyyatımızın ən görkəmli nümayəndələrindən sayılır. Xalq, Vətən, cəmiyyət, insanlıq qarşısında mənəvi borca fəal münasibət onun qəhrəmanlarının daxili aləmini müəyyən edir. Ədəbi-ictimai fikir tarixində lirik-psixoloji üslubun inkişafı və böyük uğurları bilavasitə İ.Əfəndiyevin adı və əsərləri ilə bağlıdır.

Elmi sessiyada daha sonra sənətşünaslıq elmləri doktoru, professor Məryəm Əlizadənin "İlyas Əfəndiyev teatrı", filologiya üzrə fəlsəfə doktoru Qurban Bayramovun "İlyas Əfəndiyevin yaradıcılığı" mövzularında məruzələri dinlənildi.

**S.FƏRƏCOV**

## Uşaqların bayramı münasibətilə xeyriyyə tədbiri

əvvəli səh. 1-də

Aksiya çərçivəsində təqdim edilən konsert proqramında "Səma" rəqs qrupu, "Can bala" estrada ansamblının çıxışları balacalar tərəfindən sevinclə qarşılandı. Milli və dünya xalqlarının rəqsləri, al-əlvan geyimlər, şən ritmlərlə dolu proqram uşaqlarda xoş əhval-ruhiyyə yaratdı.

Konsert proqramından sonra "Çırtdan və sehrli xalat" və "Cırtdan və Təpəgöz" cizgi filmləri nümayiş olundu. Ekran işləri nağıl, fantastika və müasir dövrün texnoloji yeniliklərini özündə əks etdirir. Mövzu, rəng, ən son yeniliklərə cavab verən texniki şərtlərlə lentə alınmış filmlər uşaqları, bir neçə dəqiqəlik də olsa, nağıllar dünyasına səyahətə apardı.

Qeyd edək ki, filmlər Mədəniyyət Nazirliyinin sifarişi, "3 dost" animasiya şirkəti, "Azanfilm" və "Salnaməfilm" studiyalarının birgə əməkdaşlığı ilə lentə alınıb.

Tədbirin sonunda uşaqlara "Ulduz" şokolad fabrikinin hədiyyələri təqdim olundu.

**LALƏ**



## "Ucal, ulu bayrağım"

Mayın 27-də Üzeyir Hacıbəylinin ev-muzeyində Azərbaycan Xalq Cümhuriyyətinin 101-ci ildönümünə həsr edilən "Ucal, ulu bayrağım" adlı tədbir keçirildi.

Muzeyin direktoru, Əməkdar incəsənət xadimi, bəstəkar Sərdar Fərəcov çıxış edərək əvvəlcə tədbir iştirakçılarını əlamətdar gün münasibətilə təbrik etdi, Cümhuriyyətin tarixinizdə yerindən, o dövrdə maarif və mədəniyyətin inkişafı naminə görülən işlərdən söz açdı.

Yasamal rayonu 18 saylı orta məktəbin direktoru Rəna Süleymanova Cümhuriyyət dövründə qadın siyasətindən danışdı, ilk dəfə qadınlara seçki hüququnun verildiyini diqqətə çatdırdı.

Çıxışlardan sonra Yasamal rayonu 18 və 150 saylı məktəblərin şagirdlərinin ifasında Almas İldırımın "Əsir Azərbaycan", xalq şairləri Nəbi Xəzrinin "İstiqlal" marşı, Nəriman Həsənzadənin "Azərbaycan" şeirləri səsləndi. Cümhuriyyətin 101-ci ildönümünə həsr olunan bədii kompozisiya nümayiş olundu.

**SAVALAN**

# “Azərbaycanın 7 möcüzəsi” layihəsinə start verilib

## Tarix, mədəniyyət və təbiət obyektlərinin seçimində hər kəs iştirak edə bilər





Mayın 28-də İçərişəhərdə İDEA İctimai Birliyi və “Nature and History Production”ın birgə dəstəyi ilə reallaşan “Azərbaycanın 7 möcüzəsi” adlı yeni televiziya layihəsinin təqdimat mərasimi olub.

İlk dəfə keçirilən layihənin məqsədi cəmiyyətdə vətənpərvərlik hislərini artırmaq, milli-mədəni və tarixi irsimizi qorumaq, ölkəmizin ərazisində yerləşən tarixi, mədəni və təbii obyektlərin tanıdılmasına, qorunmasına və bərpa edilməsinə diqqət yönəltməkdir.

Həmçinin “Azərbaycanın 7 möcüzəsi” layihəsi ölkə daxilində və xaricində Azərbaycanın tarixi, mədəni və təbii incilərini tanıtmaqla yerli və xarici turizmin, eləcə də həmin ərazilərdəki infrastrukturun inkişafına təkan verməyi öz qarşısına məqsəd qoyub.

Heydər Əliyev Fondunun vitse-prezidenti, İDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın, ictimai-siyasi xadimlərin, xarici səfirliklərin nümayəndələrinin, elm adamlarının, mədəniyyət və incəsənət ustalarının, digər peşə sahiblərinin qonaq olduğu tədbir maraqlı anlarla yadda qalıb. Xüsusi olaraq hazırlanan, layihənin mahiyyətini ehtiva edən məkanın dekorasiyasında tariximizi əks etdirən atributlar, mənəvi dəyərlərimizi ifadə edən geyimlər xüsusi diqqət çəkib. Bunlardan əlavə, məkanın interyerində hazırlanan qala maketi və üzərində insan təsvirlərinin əks olunduğu iri qaya daşları qonaqları məkana daxil olarkən tam fərqli hislərə bürüyüb, keçmişə kökləyib.

Tədbirdə çıxış edən “Nature and History Production”ın rəhbəri Hikmət Nağdəliyev, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev, mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva, AMEA-nın Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov və Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev layihə haqqında öz fikirlərini bölüşüblər.

Təqdimatın sonunda “www.yeddi.az” saytında “Azərbaycanın 7 möcüzəsi” layihəsinin səsverməsinə start verilib.

Mərasimdə Qədim musiqi alətləri ansamblının çıxışları maraqla dinlənilib.

# “Yüksəl, ey Azərbaycan” musiqi albomunun təqdimatı



Milli Konservatoriyada Azərbaycan Gənclər Fondunun maliyyə dəstəyi və “Express Bank”ın tərəfdaşlığı ilə hazırlanmış “Yüksəl, ey Azərbaycan” musiqi albomunun təqdimatı keçirildi. Layihənin rəhbəri Milli Konservatoriyanın doktorantı, Prezident təqaüdçüsü Leyla Muradzadədir.

Layihə rəhbəri məlumat verdi ki, 2018-ci ilin dekabrından hazırlanmağa başlanılan albomda musiqi və qeyri-musiqi ixtisaslı kollektivlərin ifalarından ibarət 12 mahnı yer alıb. Uşaq kapellası, Azərbaycan Milli Konservatoriyası, Bakı Musiqi Akademiyası, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tələbə xorları, 23 və 35 saylı musiqi məktəblərinin xor kollektivləri, eləcə də Sağlamlıq imkanları məhdud uşaqlar üçün 5 saylı respublika xüsusi internat məktəbi şagirdlərinin ifaları albomda cəmlənib. Layihədə ümumilikdə 250-dək uşaq və gənc iştirak edib. Layihənin məqsədi uşaq və gənclər arasında xor musiqisini təbliğ etmək, onların kollektiv ifa bacarıqlarını inkişaf etdirməkdir. Layihəyə sağlamlıq məhdudiyyətli uşaqların da cəlb olunması onların fəallığının artırılması və musiqi potensialının üzə çıxarılmasına imkan yaradıb.

Leyla Muradzadə gənclərin fəaliyyətinə göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə təşəkkürünü bildirdi: “Bu diqqət və dəstək sayəsində gənclərin ideyaları reallaşır. Gənclər Fondunun gənclərin ideyalarına verdiyi dəstək onlar üçün stimul yaradır. Xor birlik və bərabərlik anlayışının gözəl təcəssümüdür. Biz bu ənənəni yaşatmaq və inkişaf etdirmək arzusundayıq”.

Milli Konservatoriyanın rektoru, Xalq artisti Siyavuş Kərimi layihəyə dəstək olan təşkilatlara minnətdarlığını bildirdi. Qeyd etdi ki, hər bir bədii təhsil müəssisəsi xor dərnəklərinin yaradılmasında maraqlı olmalıdır.

Gənclər Fondunun şöbə müdiri Orxan Əkbərov, “Ekspress Bank”ın əməkdaşı Şəbnəm Hümbətova çıxışlarında layihənin gələcəkdə genişləndiriləcəyini diqqətə çatdırdılar.

Daha sonra albomda yer alan xor əsərləri səsləndirildi. Sonda layihə üçün xüsusi hazırlanmış “Yüksəl, ey Azərbaycan” mahnısı Bakı Musiqi Akademiyası və 23 saylı Musiqi məktəbinin birləşmiş xor kollektivi tərəfindən ifa edildi. Mahnının sözləri Anar Məmmədova, musiqisi Rəna Qədimovaya, aranjimanı isə Etibar Əsədliyə məxsusdur.

**LALƏ**

# Mərkəzi İncəsənət Məktəbinin hesabat konserti və sərgisi

Azərbaycan Dövlət Akademik Filarmoniyasında Qara Qarayev adına Mərkəzi İncəsənət Məktəbinin 28 May – Respublika Gününə həsr olunmuş hesabat konserti keçirilib.



Məktəbin müsabiqə və festivallarda yüksək nailiyyətlər əldə edən şagirdləri Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin (dirijor – Xalq artisti Rauf Abdullayev) müşayiəti ilə Y.Haydn, V.Motsart, F.Mendelson, Y.Sibelius, S.Raxmaninov, H.Xanməmmədov, T.Bakıxanov və başqa bəstəkarların əsərlərini ifa ediblər.

Gənc pianoçular Aylin Babayeva, Səyyarə Əliyeva, Münəvvər Alıyevanın ifası, Nigar Rəhimova (vokal), Mehriban Quliyeva (qanun), Əlipaşa Şahgəldiyev (trompet) və Kənan Namazovun (tar) böyük səhnədə çıxışları rəğbətlə dinlənilib.

* * *

Mərkəzi İncəsənət Məktəbi tərəfindən ənənəvi “İnsan hüquqları aylığı” çərçivəsində “Uşaqlar gələcəyimizdir” adlı sərgi-tədbir keçirilib.

İçərişəhər ərazisindəki Arxeoloji parkda (Ə.Əzimzadə bağı) gerçəkləşən sərgidə 20-dən çox gənc rəssamın müxtəlif mövzularda əl işləri nümayiş etdirilib.

Tədbirdə Mədəniyyət Nazirliyinin Elm və tədqiqatlar sektorunun müdiri Vüqar Baxışov iştirak edib.

Həmçinin izləyicilərə məktəbin xalq çalğı alətləri və xanəndə ixtisası üzrə şagirdlərinin ifasında musiqi nömrələri təqdim olunub. Sonda bütün iştirakçılar məktəbin direktoru Əziz Qarayusifli və rəsm sinfinin müəllimi Nigar Şıxəliyeva tərəfindən diplom və hədiyyələrlə mükafatlandırılıb.

# Diri Baba türbəsində bərpa işləri aparılacaq

Mədəniyyət naziri Əbülfəs Qarayev, Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov və Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Zakir Sultanov mayın 24-də Qobustan rayonu ərazisində yerləşən Diri Baba türbəsində olublar.



Tarixi abidənin hazırkı vəziyyəti haqqında məlumat verilib. Bildirilib ki, türbə həm yerli sakinlərin, həm də əcnəbi qonaqların mütəmadi ziyarət etdiyi məkanlardan biridir. Diri Baba türbəsində ötən ilin fevral ayında naməlum şəxslər tərəfindən yanğın törədilib. Abidənin şəbəkə formasında olan pəncərələrinin bir hissəsi dağıdılıb, türbəyə ciddi ziyan vurulub. Əbülfəs Qarayev Diri Baba türbəsinin tezliklə bərpa olunmasının vacibliyini qeyd edib. Türbənin abidə mühafizəçiləri tərəfindən daim nəzarət olunması və digər məsələlər barədə tapşırıqlar verilib.

Qeyd edək ki, hazırda abidənin bərpa olunması layihəsi “Azərbərpa” Elmi Tədqiqat Layihə İnstitutu tərəfindən hazırlanır. Türbə bərpa olunduqdan sonra ərazidə ziyarətçilərin rahatlığını təmin etmək üçün infrastruktur yaradılacaq. Abidənin yerləşdiyi ərazi abadlaşdırılacaq.

# Muğam sənətimizin görkəmli nümayəndəsi

Mayın 29-da Beynəlxalq Muğam Mərkəzində “Unudulmayanlar” layihəsi çərçivəsində Azərbaycan muğam sənətinin görkəmli nümayəndəsi, tanınmış xanəndə və pedaqoq, Xalq artisti Seyid Şuşinskinin anadan olmasının 130 illiyinə həsr edilmiş tədbir keçirilib. Tədbir sənətkarın yubileyi ilə bağlı ölkə başçısının 2019-cu il 4 fevral tarixli sərəncamının icrası çərçivəsində təşkil olunub.



Tədbirin aparıcısı, tədqiqatçı alim Gülhüseyn Kazımlı Seyid Şuşinskinin həyat və yaradıcılığından geniş söhbət açıb.

Xalq artisti Arif Babayev Seyid Şuşinskinin bənzərsiz sənət dünyasından söz açaraq sənətkarla bağlı xatirələrini bölüşüb.

Xalq artisti, tarzən Ramiz Quliyev bildirib ki, Seyid Şuşinski məktəb yaradaraq muğam tarixinə öz möhürünü vurub. Onun yetirmələri Azərbaycanın muğam sənətini layiqincə təmsil və təbliğ edirlər.

Tədbirdə təqdim olunan konsert proqramında Əməkdar artist Bəyimxanım Vəliyeva və Azərbaycan Televiziyası və Radiosunun solisti Ayşən Mehdiyevanın ifasında muğam dəsgahları səsləndirilib.

# Respublika Gününə həsr olunmuş fotosərgi

Bakı Xoreoqrafiya Akademiyasında (BXA) 28 May – Respublika Gününə həsr olunmuş “Zəriflik” adlı fotosərgi keçirilib. Akademiyanın İncəsənət fakültəsi və Azərbaycan Fotoqraflar Birliyinin (AFB) dəstəyi ilə gerçəkləşən sərgidə 40-dan çox əsər nümayiş etdirilib.



BXA-nın tədris işləri üzrə prorektoru Sevda Sadıxbəyova və AFB-nin sədr müavini Rauf Umud çıxış edərək sərgi haqqında məlumat veriblər. Bildirilibb ki, BXA-nın yeni açılmış İncəsənət fakültəsinin tələbələri üçün foto üzrə ustad dərsləri keçirilib və sərgidə yeddi tələbənin akademiyanın fəaliyyəti ilə bağlı çəkdikləri fotolar nümayiş olunur.

Tədbirdə çıxış edən Xalq rəssamı Ağaəli İbrahimov sərginin əhəmiyyətini qeyd edib.

Sərgi iştirakçılarına AFB tərəfindən sertifikatlar, Rəssamlar İttifaqının diplomları təqdim olunub. Sonda sərgiyə baxış keçirilib.

# Regionlardan qısa xəbərlər

Bərdə Regional Mədəniyyət İdarəsinin Tərtər rayon nümayəndəliyi tərəfindən 28 May – Respublika Günü münasibətilə tədbir-konsert təşkil olunub. Tərtər rayon Uşaq musiqi məktəbinin konsert proqramı maraqla qarşılanıb.

Regional idarənin tabeliyində olan Bərdə Rayon Tarix-Diyarşünaslıq Muzeyində Respublika Günü ilə əlaqədar “açıq dərs” keçirilib.

* * *

Biləsuvar Regional Mədəniyyət İdarəsinin tabeliyində olan Neftçala rayon Mərkəzi kitabxanasının təşkilatçılığı, Neftçala Dövlət Rəsm Qalereyasının dəstəyi ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü və Respublika Gününə həsr olunmuş “Oxu bayramı” keçirilib. Heydər Əliyev Mərkəzinin qarşısındakı parkda təşkil olunan tədbirdə məktəblilərin əl işlərindən ibarət rəsm sərgisi də açılıb.

* * *

Ağstafa rayon Heydər Əliyev Mərkəzində tanınmış aktyor, Xalq artisti, Prezident təqaüdçüsü Tariyel Qasımovun 80 illik yubileyi qeyd olunub. Rayon İcra Hakimiyyəti və Ağstafa Regional Mədəniyyət İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə paytaxtdan gəlmiş Dövlət Gənc Tamaşaçılar Teatrının aktyorları da iştirak ediblər. İcra Hakimiyyəti başçısının birinci müavini Ramiz Tatarov, regional idarənin rəisi Vüqar Qədirov, digər çıxış edənlər yubilyarın sənət yolundan bəhs ediblər. Ağstafa rayon Uşaq musiqi məktəbi ansamblının ifasında mahnılar səsləndirilib, Gənc Tamaşaçılar Teatrı və Qazax Dövlət Dram Teatrı aktyorlarının ifasında səhnəciklər nümayiş olunub.

* * *

Quba rayon Bəşir Səfəroğlu adına Mədəniyyət Mərkəzində xalq çalğı alətləri ifaçılarının IV Respublika müsabiqəsinin ilk mərhələsi keçirilib. Müsabiqədə Xaçmaz, Quba, Qusar, Şabran, Siyəzən və Xızı rayonlarında fəaliyyət göstərən uşaq musiqi və uşaq incəsənət məktəblərində təhsil alan xalq çalğı alətləri ifaçıları iştirak edib. Fərqlənənlər müsabiqənin 7-9 iyun tarixində Bakıda keçiriləcək ikinci turunda iştirak hüququ qazanıb.

* * *

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən gənc pianoçuların IV Respublika müsabiqəsinin Şəki regionu üzrə I mərhələsi Zaqatalada başa çatıb.

Müsabiqədə Şəki, Zaqatala, Balakən, Qax və Oğuzda fəaliyyət göstərən uşaq musiqi və incəsənət məktəblərinin 28 şagirdi iştirak edib. Onlardan 9 nəfər piano müsabiqəsinin Bakı şəhərində keçiriləcək II mərhələsində iştirak etmək haqqı qazanıb.

* * *

“Nəsimi ili” çərçivəsində Lənkəran rayon Mədəniyyət Mərkəzinin klub filiallarında tədbirlər keçirilib. Türkəkəran kənd Folklor evinin və Vel kənd Sənətkarlıq klubunun yaradıcı kollektivi “Nəsimi” filmindən parçalar səhnələşdirib. Boladi-1 kənd Folklor və Boladi-2 kənd Diyarşünaslıq klublarının hazırladığı tematik konsertlər, Ləj və Haftoni kənd sənətkarlıq klublarının keçirdiyi bədii qiraət müsabiqəsi, Liman şəhər Folklor klubunun və Osaküçə kənd Yaradıcılıq evinin hazırladıqları ədəbi-bədii kompozisiyalar da maraqla qarşılanıb.

* * *

Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Füzuli rayonunun 3-cü Zobucuq qəsəbə orta məktəbində Azərbaycanın Milli Qəhrəmanı Seymur Məmmədov haqqında “Qartal yuvası” sənədli filminin təqdimatı keçirilib. “Salnaməfilm” studiyasında çəkilən filmin rejissoru Çingiz Həsənovdur.

Füzuli Rayon İcra Hakimiyyəti və Kürdəmir Regional Mədəniyyət İdarəsinin birgə təşkilatçılığı ilə “Qartal yuvası” sənədli filmi Füzuli rayon Muğam Mərkəzində də nümayiş olunub.

* * *

Sumqayıtın 70 illiyi çərçivəsində Sumqayıt Regional Mədəniyyət İdarəsinin dəstəyi ilə ümumşəhər rəqs müsabiqəsinin yekun turu keçirilib. “28 May” Mədəniyyət evində təşkil olunan müsabiqədə C.Cabbarlı adına Mədəniyyət evinin “Turan” rəqs qrupu I yerə, “Dostluq” Mədəniyyət evinin “Şahinlər” rəqs qrupu II yerə, şəhər Gənclər və yaradıcılıq mərkəzinin rəqs kollektivi III yerə layiq görülüb.

* * *

İsmayıllı Regional Mədəniyyət İdarəsinin tabeliyində fəaliyyət göstərən Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyi “Azərbaycan 1918-1920-ci illərdə” adlı kitab sərgisi təşkil edib. Muzeyin əməkdaşları Qəbələ Dövlət Peşə Təhsili Mərkəzində mühazirə və “İstiqlal bəyannaməsi”nə ilk imza atanlardan Şəfi bəy Rüstəmlinin həyat və fəaliyyəti haqqında söhbət aparıblar.

№39 (1624)
31 may 2019
www.medeniyyet.az

# Regionlarda vətəndaşların növbəti qəbulu keçirilib







əvvəli səh. 1-də

Qəbullardan öncə ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunub, abidə önünə tər çiçək dəstələri düzülüb.

Nazir Əbülfəs Qarayevin iştirak etdiyi qəbulda vətəndaşlar tərəfindən Şamaxı rayonunda aşıq Məmmədağa Babayevin büstünün ucaldılması, Şamaxı Tarix-Diyarşünaslıq Muzeyinin nəzdində "Şəxsiyyətlər muzeyi"nin yaradılması, "Yeddi günbəz" kompleksinin bərpa olunması, Sündü kəndində olan mağaraya inventar nömrəsinin, Şirvan folklor kollektivinə "xalq kollektivi" adının verilməsi ilə bağlı müraciətlər edilib. Həmçinin Qobustan rayon Rəşid Behbudov adına Musiqi məktəbi üçün konsert zalının tikilməsi, Şamaxıda səsyazma studiyasının yaradılması, Dəmirçi Arxeologiya Muzeyinin nazirliyin balansına verilməsi, fəxri adlar, işlə təmin olunma və digər məsələlərlə bağlı müraciətlər də səslənib.

* * *

Nazirin birinci müavini Vaqif Əliyevin keçirdiyi qəbulda İsmayıllı və Qəbələ rayonlarından olan vətəndaşların müraciətləri xalq teatrlarının rejissorları üçün paytaxt teatrlarında praktiki məşğələlərin təşkili, Qəbələ Rayon Heydər Əliyev Mərkəzinin yeni eksponatlarla təchizatı, İsmayıllı rayon Tarix-Diyarşünaslıq Muzeyinin nazirliyin balansına verilməsi, Qəbələ Dövlət Rəsm Qalereyası üçün inzibati binanın tikilməsi, rayon MKS-lərə yeni kitabların verilməsi, "Lahıc" xalq kollektivinə ştat vahidlərinin ayrılması barədə olub.

* * *

Nazir müavini Rafiq Bayramovun iştirak etdiyi qəbulda Ağsu rayon sakinləri tərəfindən ölkədəki Heydər Əliyev mərkəzlərinə tanışlıq turlarının təşkili, Ağsu Uşaq musiqi məktəbinin incəsənət məktəbinə çevrilməsi, məktəb üçün yeni binanın tikilməsi, Tarix-diyarşünaslıq muzeyinin təmiri və ekspozisiyasının yenidən qurulması və digər məsələlər barədə müraciətlər edilib.

* * *

Mədəniyyət Nazirliyinin aidiyyəti struktur bölmələri nümayəndələrinin iştirakı ilə keçirilən qəbullarda vətəndaşlar diqqətlə dinlənilib, qaldırılan məsələlərin böyük əksəriyyəti yerindəcə həll edilib, digər müraciətlərin operativ araşdırılması və qanunvericiliyə uyğun həlli üçün müvafiq tapşırıqlar verilib.

Ümumilikdə qəbullarda 50 nəfərdən çox vətəndaşın müraciətinə baxılıb.

Qəbuldan sonra mətbuata açıqlama verən mədəniyyət naziri Əbülfəs Qarayev vətəndaşlar tərəfindən qaldırılan məsələlərin əhəmiyyətini qeyd edib: "Bugünkü qəbulda mədəni xidmətlərin səviyyəsinin artırılması, müasir tələblər səviyyəsində qurulması kimi məsələlər qaldırıldı, eyni zamanda fərdi qaydada baxılmalı olan məsələlər də var. Həmçinin bölgədə olan tarixi abidələrin bərpası, qorunması ilə bağlı məsələlər də xüsusi diqqətdə saxlanılacaq".

Nazir vurğulayıb ki, Şamaxı şəhəri Azərbaycan tarixinə görkəmli şəxsiyyətlər bəxş edib. Bu il böyük Azərbaycan şairi İmadəddin Nəsiminin yubileyi ilə əlaqədar Şamaxıda festivalın təşkilinə hazırlıq həyata keçirilir. Həmçinin Mirzə Ələkbər Sabirin ev-muzeyinin daxili tərtibatı tamamlanmaq üzrədir.

Əbülfəs Qarayev mayın 24-də nazir müavinləri tərəfindən İsmayıllı, Qəbələ və Ağsu sakinlərinin qəbulunun keçirildiyini də diqqətə çatdıraraq deyib ki, bu cür görüşlər vətəndaşları narahat edən məsələlərin operativ həll olunmasına şərait yaradır.

## "Nəsimi" baleti yenidən səhnədə



Mayın 25-də Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Fikrət Əmirovun "Nəsimi" baletinin uzun fasilədən sonra premyerası olub. Tamaşa böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunub.

Böyük bəstəkarın 1973-cü ildə yazdığı birpərdəli balet (libretto müəllifi Anar) baletmeyster Nailə Nəzirovanın quruluşunda tamaşaya qoyulmuş və 1974-cü ildə respublika Dövlət mükafatına layiq görülmüşdü.

Əsərin yenidən səhnəyə qoyulması Opera və Balet Teatrının "Nəsimi ili"nə töhfəsidir. Tamaşanın quruluşçu baletmeysteri Opera və Balet Teatrı balet truppasının bədii rəhbəri, Xalq artisti Kamilla Hüseynova, libretto müəllifi Əjdər Ulduz, musiqi rəhbəri və dirijoru Xalq artisti Yalçın Adıgözəlov, səhnə tərtibatçısı Əməkdar rəssam Nüsrət Hacıyev, geyim rəssamı Xalq rəssamı Rafiz İsmayılovdur.

Tamaşada teatrın balet truppasının aparıcı solistləri – Anar Mikayılov (şair Nəsimi), Əməkdar artistlər Nigar İbrahimova (Nəsiminin həyat yoldaşı), Samir Səmədov (Nəimi), həmçinin İslam Məmmədov (gənc Nəsimi) və Dinara Şirinova (Nəsiminin qızı) çıxış ediblər.

## Xalçaçı rəssamın "Gül çələngi"



Mayın 27-də "Qalereya 1969" salonunda xalçaçı rəssam Eldar Hacıyevin "Gül çələngi" adlı fərdi sərgisinin açılış mərasimi keçirildi.

Mərasimdə Rəssamlar İttifaqının katibi, Xalq rəssamı Ağaəli İbrahimov və başqa çıxış edənlər sərginin əhəmiyyətindən danışdılar. Bildirildi ki, sərgidə dahi şair və mütəfəkkir Nizami Gəncəvi yaradıcılığını özündə əks etdirən "Nizami dünyası" adlı xalça xüsusi diqqət çəkir. Qeyd olundu ki, Eldar Hacıyevin əsərləri xalçaçılıq və miniatür sənətinin üzvi birləşməsi ilə xarakterizə olunur. Bu əsərlər Azərbaycan poeziyasını, zəngin tarix və mədəniyyətimizi təbliğ edir. Rəssam tanınmış şəxsiyyətlərin, dövlət xadimlərinin portretlərini xalça üçün işləyib.

Vurğulandı ki, Eldar Hacıyevin işləri müxtəlif muzeylərdə və şəxsi kolleksiyalarda saxlanılır. Rəssamın 2013-cü ildə Heydər Əliyev Fondunun təşkilatçılığı və ölkəmizin Fransadakı səfirliyinin dəstəyi ilə Parisdəki Məktublar və Əlyazmalar Muzeyində Nizami Gəncəvinin 870 illik yubileyinə həsr olunmuş sərgidə, eləcə də Reyn şəhərində Məhsəti Gəncəvinin 900 illik yubileyi ilə əlaqədar sərgidə iştirak edib. 2016-cı ildə Vəcihə Səmədova adına sərgi salonunda "İlmələrin rəqsi" adlı fərdi sərgisi açılıb, bu il isə Moskvada Ümumrusiya Dekorativ-Tətbiqi və Xalq Sənəti Muzeyində, Dubay şəhərində "Baku Breeze", "Nur Art House" qalereyasında "Allı-güllü Novruzum" sərgilərində iştirak edib.

Sonda çıxış edən Eldar Hacıyev sərginin ərsəyə gəlməsinə dəstək olan hər kəsə öz minnətdarlığını bildirdi.

Sərgi mayın 29-dək davam edib.

**FARİZ**

# Yerlərdə bədii təhsilin inkişafına diqqət

### İsmayıllı şəhər Uşaq incəsənət məktəbi əsaslı təmirdən sonra istifadəyə verilib

Ölkəmizdə musiqi və incəsənət təhsilinin inkişafı istiqamətində mühüm işlər görülür. Paytaxtla yanaşı, bölgələrdə də yeni bədii təhsil ocaqları tikilib istifadəyə verilir, mövcud təhsil müəssisələri təmir-bərpa olunur.

Mayın 24-də İsmayıllı Regional Mədəniyyət İdarəsinin tabeliyində fəaliyyət göstərən İsmayıllı şəhər Fazil Əzimov adına Uşaq incəsənət məktəbi binasının əsaslı təmirdən sonra açılışı keçirilib.

Açılış mərasimində mədəniyyət nazirinin birinci müavini Vaqif Əliyev, rayon İcra Hakimiyyətinin başçısı Mirdamət Sadıqov, rayon ziyalıları, təhsil ocağının kollektivi, mədəniyyət müəssisələrinin işçiləri iştirak edib.

Tədbirdə çıxış edənlər mədəniyyətimizin hərtərəfli inkişaf etdirilməsinə dövlət tərəfindən böyük diqqət göstərildiyini vurğulayıblar. Bildirilib ki, məktəbdə yaradılan müasir şərait kollektivin fəaliyyətini canlandıracaq, şagirdlərin musiqi biliklərinə daha dərindən yiyələnməsinə, yaradıcılıq imkanlarını daha geniş şəkildə ifadə etmələrinə zəmin olacaq. Təhsil ocağında aparılan əsaslı təmir-bərpaya görə ölkə rəhbərliyinə minnətdarlıq ifadə edilib.



# "Ənənələrin gələcəyi"

### Rəsmlər necə xalçaya çevrilir




əvvəli səh. 1-də

Mədəniyyət Nazirliyinin sektor müdiri Qalib Qasımov rəssamın yaradıcılığından bəhs edib. Azərbaycan Dövlət Rəsm Qalereyası tərəfindən sənətkarın həyat və yaradıcılığı ilə bağlı hazırlanmış videoçarx təqdim edilib.

Xalq rəssamları Ağaəli İbrahimov, Səlhab Məmmədov, Əməkdar rəssam Məmmədhüseyn Hüseynov yubilyar həmkarlarının çoxşaxəli yaradıcılığından söhbət açıblar.

Qeyd edilib ki, Ə.Əzimzadə adına Dövlət Rəssamlıq Məktəbi və Azərbaycan Dövlət İncəsənət İnstitutunun məzunu olan Aydın Rəcəbov tələbəlik illərində sənət sirlərini öyrəndiyi rəssam və tədqiqatçı Lətif Kərimov məktəbinin davamçısı sayılır. Rəssamın yaratdığı xalçalar Azərbaycanın və xarici ölkələrin muzey və qalereyalarında saxlanılır. Sənətkar ənənəvi türk-oğuz ornamental motivlərindən geniş istifadə edir, yaratdığı bəzi süjetli xalçalarda Orta əsrlər Azərbaycan miniatür sənətinin təsirini görmək mümkündür.

Diqqətə çatdırılıb ki, sərgidə rəssamın eskizləri əsasında toxunan 20 xalça, iki xalça kəməri və iki çul, xalça eskizləri nümayiş olunur.

Sonda Aydın Rəcəbov çıxış edərək tədbirin təşkilatçıları və iştirakçılarına təşəkkürünü bildirib.

## "Nağılların rəng dünyası"

F.Köçərli adına Respublika Uşaq Kitabxanası və 3 nömrəli Uşaq-gənclər inkişaf mərkəzinin birgə təşkilatçılığı ilə Gənc Tamaşaçılar Teatrında 21 may – Dünya Mədəni Müxtəliflik Günü ilə əlaqədar "Nağılların rəng dünyası" adlı tədbir keçirilib.

Tədbirin keçirilməsində məqsəd mədəni müxtəlifliyin dəyər və əhəmiyyətini uşaq və yeniyetmələrə aşılmaq, müxtəlif xalqların mədəniyyətlərini nümayiş etdirmək, uşaqları mütaliəyə həvəsləndirməkdir. Tədbirdə BMT-nin Uşaq Fondu – UNICEF-in Azərbaycandakı nümayəndəliyinin rəhbəri Edvard Karvardin, Mədəniyyət Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, İnsan Hüquqları üzrə Müvəkkil Aparatının əməkdaşları, digər qonaqlar, uşaq yazarları Elvira Məmmədova, Aygün Bünyadzadə, Mehriban Nağıyeva iştirak ediblər.

Əvvəlcə dünya ölkələri haqqında məlumat verən videogörüntü nümayiş etdirilib. Uşaqların ifasında ayrı-ayrı ölkələrin nağıl qəhrəmanları və milli rəqsləri təqdim edilib. Musiqili nağıl-tamaşada Əməkdar artist Elnur Hüseynov görkəmli ədəbiyyatşünas Firidun bəy Köçərlinin obrazını canlandırıb.

Sonda kitabxananın direktoru, Əməkdar mədəniyyət işçisi Şəhla Qəmbərova çıxış edərək göstərilən tamaşanın uşaqların kitaba marağının artmasına xidmət edəcəyinə ümidvar olduğunu deyib.

Teatrın foyesində dünya xalqlarının nağıllarını əks etdirən 500-dən çox uşaq kitabı nümayiş olunub. Kitabxana tərəfindən uşaqlara kitablar hədiyyə edilib.



## Balaca ifaçının beynəlxalq uğuru

Fransanın Annemasse şəhərində Adilə Əliyeva adına gənc pianoçular və instrumentalçıların XIV Beynəlxalq müsabiqəsi keçirilib. Müsabiqədə Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin G.Şaroyev adına 35 nömrəli Musiqi məktəbinin klarnet ixtisası üzrə IV sinif şagirdi Asim Rzazadə uğurla iştirak edib.



Seçim turunda 300-dən çox ifaçı arasından finala vəsiqə qazanmış 30 nəfər iştirakçı arasında yer alan Asim L.V.Bethovenin "Sonatina" B-dur, M.Monqaninin "Romans", B.Kovaçın "Salam aleykum" və Q.Qarayevin "İldırımlı yollarla" baletindən "Gitaralı qızların rəqsi" əsərlərini məharətlə ifa edərək I yerə və laureat adına layiq görülüb.

Müsabiqə laureatlarının qala-konserti İsveçrənin Cenevrə şəhərində BMT-nin Konqres zalında keçirilib. Konserti Azərbaycanın İsveçrədəki səfiri Xanım İbrahimova da izləyib. Fransa mətbuatında yer alan məqalədə Asimin ifası haqqında müsbət rəylər qeyd olunub. Balaca ifaçının uğurlarında müəllimi Vaqif Məmmədovun və konsertmeyster Svetlana Əhmədovanın əməyi böyükdür.

# Tariximizin qaranlıq səhifələrinə həqiqət işığı

## "Siyasi Repressiya Qurbanları Muzeyi"nin açılış mərasimi keçirildi

əvvəli səh. 1-də

Tədbirdə çıxış edən DSX-nin rəisi, general-polkovnik Elçin Quliyev bildirdi ki, Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyinə həsr olunmuş tədbirlər çərçivəsində belə bir muzeyin yaradılmasında məqsəd repressiya qurbanlarının xatirəsinə ehtiram və yaxın keçmişimizin qanlı səhifələri haqqında bugünkü və gələcək nəsillərin düzgün məlumatlandırılmasıdır. Vurğulandı ki, ötən əsrin 20-ci illərindən başlayaraq "AzÇEKA" kimi tanınan Fövqəladə Komissiyanın, "NKVD" adı ilə qorxu və vahimə hisləri oyadan Daxili İşlər Xalq Komissarlığının yerləşdiyi bu binada belə bir muzeyin yaradılması tarixin tələbidir: "Bu qalın divarlar arxasında xalqımızın minlərlə övladlarına "xalq düşməni", "Vətən xaini" damğası vurulub, görkəmli ziyalı və mütəfəkkirlər, elm və mədəniyyət xadimləri məhv edilib.

Mədəniyyət naziri Əbülfəs Qarayev xalqımızın tarixində dərin kədər hissi ilə yad olunan repressiya qurbanlarının xatirəsinə həsr olunmuş muzeyin açılmasının önəmini qeyd etdi: "Xalqımızın tarixində böyük qəhrəmanlıqlarla yanaşı, bu cür faciələr də var. Belə ağrılı hadisələri özündə əks etdirən muzeylər tarixdən örnək götürməyə sövq edir".

Diqqətə çatdırıldı ki, 1950-ci illərin ikinci yarısında siyasi repressiya qurbanlarına bəraət verilməsinə baxmayaraq, bu barədə geniş məlumatların yayılmasına qadağa qoyulmuşdu. Müstəqillik illərində – 15 mart 1996-cı il tarixində ümummilli lider Heydər Əliyevin imzaladığı "Siyasi repressiya qurbanlarının reabilitasiyası haqqında" qanunda bu hadisələrə hüquqi qiymət verildi.





Nazir qeyd etdi ki, xalqımızın azadlığını, gələcəyini düşünən siyasi xadimlər, ədiblər bu repressiyanın qurbanı olublar. Hər bir dövlətin, xalqın bacarığı və qüdrəti ondan ibarətdir ki, öz keçmişinə ehtiramla yanaşsın, qiymət versin, tarixini gənc nəslə tanıtsın. Muzey aktiv fəaliyyət göstərməli, xüsusilə şagirdlər, tələbələr buranı tez-tez ziyarət etməlidir.

Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar, AMEA-nın Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov və Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-polkovnik Mədət Quliyev çıxış edərək 1920-ci ildən başlayan siyasi repressiyaların acı nəticələrindən danışdılar. Vurğulandı ki, siyasi repressiyaların ilk qurbanları Azərbaycan Xalq Cümhuriyyətinin tanınmış simaları olub. Həmin illərdə Azərbaycanın qabaqcıl ziyalılarına qarşı repressiyaların təşkilində o dövrdə müvafiq orqanlarda məsul vəzifələr tutmuş erməni əsilli şəxslərin böyük rolu olub.



Çıxışlardan sonra tədbir iştirakçıları muzeylə tanış oldular. Məlumat verildi ki, muzeyin ekspozisiyasının əsasını Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Siyasi Sənədlər Arxivində, Milli Arxiv İdarəsinin Dövlət və Kino-Foto arxivlərində, Dövlət Təhlükəsizliyi Xidmətinin arxivində saxlanılan sənədlər və fotoşəkillər, həmçinin yerli sənətkarların hazırladıqları kompozisiyalar təşkil edir. Muzeyin ekspozisiyasının hazırlanmasına Mədəniyyət Nazirliyi və AMEA-nın Tarix İnstitutu tərəfindən də kömək göstərilib. Bir sıra sənədlər Rusiya arxivlərindən, Qazaxıstanın "ALJİR" ("Vətən xainləri qadınlarının Akmola düşərgəsi") siyasi repressiya muzeyi tərəfindən təqdim olunub.

Muzeyin əsas zalında "Danışan sənədlər" adlanan lövhədə repressiyanın həyata keçirilməsi ilə bağlı 1920-1930-cu illərdə qəbul edilmiş sənədlərin surətləri verilib. Ayrıca bir lövhə böyük dramaturq və şair Hüseyn Cavidə həsr edilib. Növbəti lövhədə Azərbaycan ziyalılarının məruz qaldıqları repressiyalardan bəhs edilir. Burada şair Mikayıl Müşfiq, pedaqoq Tağı Şahbazi, aktyor Abbas Mirzə Şərifzadə və digərlərinin güllələnmələri barədə aktların və arayışların surətləri nümayiş olunur. Əsas zalda yerləşdirilən lövhələrdən biri də repressiyaya məruz qalmış azərbaycanlı hərbi xadimlərə həsr olunub. Burada həm Cümhuriyyət dövründə xidmət etmiş generallar – Həbib bəy Səlimov, Firudin bəy Vəzirov, Süleyman bəy Sulkeviç, İbrahim ağa Usubov və digərləri, həm də sovet Azərbaycanının hərbçiləri – generallar Cəmşid Naxçıvanski, Qambay Vəzirov və başqaları haqqında məlumat və fotoşəkillər verilib.

Repressiya illərində bolşeviklərin siyasi məhbuslarla necə qəddarcasına davranması barədə ziyarətçilərdə təsəvvür yaratmaq məqsədilə saxlama kameraları, karserlər, dindirilmə otağı, güllələnmə otağı tarixi rekonstruksiya üsulu ilə bərpa edilib. Muzeyin dəhlizlərində azadlığa can atmanı simvolizə edən kompozisiyalar qurulub.

Muzeyin gələcək fəaliyyətində Rusiya və Qazaxıstanda keçmiş islah-əmək düşərgələri və sürgün ərazilərində təşkil olunan siyasi repressiya muzeyləri ilə əlaqə yaradılması, həmin düşərgələrdə cəza çəkmiş azərbaycanlılar haqqında məlumatların toplanılması, ekspozisiyaların yenilənməsi və s. tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub.

**Fariz HÜSEYNOV**

# "Generalın son əmri" yenidən verildi

**Bu il Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq şairi, dramaturq Vaqif Səmədoğlunun anadan olmasının 80 ili tamam olur. İstər poeziya, istərsə də dramaturgiyada özünəməxsus yolu olan ədibin irsi daim maraqlı və oxunaqlıdır. Mayın 24-də Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında Vaqif Səmədoğlunun xatirəsinə həsr olunmuş tədbir keçirildi. Mədəniyyət naziri Əbülfəs Qarayev, ədəbiyyat, incəsənət xadimlərinin iştirak etdiyi tədbirdə şairin yaradıcılıq yoluna nəzər salındı.**






Qonaqlar ilk olaraq teatrın foyesində ədibin kitabları, haqqında yazılar dərc edilən nəşrlərdən ibarət sərgi ilə tanış oldular.

Mədəniyyət naziri Əbülfəs Qarayev Xalq şairinin yaradıcılığı ilə bağlı fikirlərini jurnalistlərlə bölüşdü. Bildirdi ki, Vaqif Səmədoğlu zəngin təfəkkürə malik insan idi: "Bu gün böyük bir ədəbiyyat nəslinin nümayəndəsi Vaqif Səmədoğlunun 80 illik yubileyi çərçivəsində Milli Dram Teatrında onun tamaşası bərpa olunaraq yenidən təqdim olunur. Hesab edirəm ki, bu, gözəl ənənədir. Onun hər bir əsəri böyük əks-sədaya səbəb olub. Çünki o, tamamilə yeni bir düşüncənin sahibi, azadlıq duyğuları ilə yazıb-yaratmış şəxsiyyətlərdən biri idi. Ona görə də onun hər bir əsəri yeniliklə fərqlənirdi. Vaqif Səmədoğlunun hər bir əsərinin Azərbaycan kino, teatr, ədəbiyyat tarixində özünəməxsus yeri var".

Sonra Vaqif Səmədoğlunun "Generalın son əmri" əsəri əsasında hazırlanan ikihissəli tragikomik tamaşa nümayiş olundu. Tamaşanın quruluşçu rejissoru Xalq artisti Ramiz Həsənoğlu, səhnə tərtibatçısı Xalq rəssamı Nazim Bəykişiyev, bəstəkarı Əməkdar incəsənət xadimi Cavanşir Quliyevdir. Mədəniyyət Nazirliyinin sifarişi ilə 2014-cü ildə səhnələşdirilən və yenidən bərpa olunan tamaşada rollarıı xalq artistləri Cəfər Namiq Kamal, Sabir Məmmədov, Əjdər Həmidov, əməkdar artistlər Mehriban Xanlarova, Dilarə Əliyeva, Sənubər İsgəndərli, Almaz Amanova, Ayşad Məmmədov, Rövşən Kərimduxt, Hicran Nəsirova və başqaları ifa edirdilər.

Səhnə əsərinin qəhrəmanı təqaüddə olan və ilk gəncliyində-ri, Cəllad, Şeypurçu əsgər onu rahat buraxmırlar. Onun yanına dünyanın yuxuya qərq olduğu vaxtda gələrək mənəvi intiqam alırlar. 53 ilin, keçən bu uzun zamanın intiqam hissi soyumurmuş. Bunu generalın güdazına gedərək Qazaxıstanda öldürülən qurbanın qızının – Qisasçı ki unudulmaz sevgisinin xəyalı ilə yaşayan general (Cəfər Namiq Kamal) həyatsevərdir, eyni zamanda soyuqqanlı, zabitəli, hökmündə qətidir, ətrafını öz təsiri altında saxlamaq vərdişinə sahibdir. Onun həyatı – insanlarla ünsiyyəti, gəzintisi, danışığı, susqunluğu, qidalanmağı – ümumilikdə həyat əlamətlərinin hər detalı cədvəl dəqiqliyi ilə qurulub. Həyatının yeganə yanlışı "hər şeyin ona tabe olmasını" düşünməsidir. Bir də illər öncəkindəki sevgisi, illərdir gözlədiyi, Qız qalasından boylanmasını xəyal etdiyi eşq pərisi. Zamana uduzan, əmrə müntəzirlik üçün ən ali duyğuları belə heçə saymaq onun sonrakı əzablarını ovuda bilmir. Ona görə də Fəraqadının qayıdışı bir daha isbat edir.

Amma generalın ağrıları bununla da bitmir. Onun babalarının ölümünü səbirsizliklə gözləyən miskin nəvələri daha böyük ağrısıdır. Babası öldükdən sonra onun mülkünə sahib çıxıb rahat yaşayacağı xəyalını quran alkoqolik nəvəsi, bütün sadəətini babasından istədiyi çilçıraqda axtaran qız nəvəsi, generala nəvələrindən də çox nifrət edən hiyləgər qonşusu da var. Ümumilikdə mənəvi faciənin hekayətini canlandıran tamaşa imperiya, repressiya, müharibə və bu faciələr nəticəsində darmadağın olmuş insan talelərinin tragikomediya janrında təsviridir.

**Həmidə NİZAMİQIZI**

# Kinomuzun 100 yaşlı Xanı yad edildi

"Ögey ana", "Böyük dayaq", "Yenilməz batalyon" və sevə-sevə izlədiyimiz digər filmləri lentə almış görkəmli kinooperator Xan Babayevin (1919-1967) anadan olmasının 100 illiyi münasibətilə mayın 24-də Dövlət Film Fondunda xatirə gecəsi keçirildi. Əvvəlcə qonaqlar fondun foyesində sənətkarın həyat və fəaliyyətinin əks olunduğu fotosərgi ilə tanış oldular.

Tədbiri giriş sözü ilə Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının icraçı katibi, Əməkdar incəsənət xadimi Cəmil Quliyev açaraq sənətkarın milli kinomuzun inkişafında xidmətlərindən danışdı. Bildirdi ki, kinooperatorluq məktəbimizin parlaq nümayəndələrindən olan Xan Babayev çəkdiyi sənədli və bədii filmlərlə bu sahənin inkişafına töhfələr verib.

Kinoşünas, Əməkdar incəsənət xadimi Aydın Kazımzadə X.Babayevin ömür və yaradıcılıq yollarından danışdı. Bildirdi ki, sənətkar Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunda oxuyarkən II



Dünya müharibəsi başlayır. Onun döyüş yolu Polşa, Macarıstan, Çexoslovakiya, Ruminiya və Almaniyadan keçir. Göstərdiyi igidliklərə görə bir sıra orden və medallara layiq görülür. Ordudan tərxis olunduqdan sonra təhsilini görkəmli rus kinooperatoru, professor Boris Volçekin emalatxanasında davam etdirir. 1950-ci ildə təhsilini başa vuraraq professional kinooperator kimi Bakıya qayıdır.

X.Babayevin ümumittifaq kinojurnalları üçün çoxlu süjetlər çəkdiyini deyən A.Kazımzadə sənətkarı həm də kinematoqrafda təbiətin tərənnümçüsü kimi xarakterizə etdi. Bildirdi ki, onun çəkdiyi filmlər bu gün də sevilə-sevilə baxılır. "Yenilməz batalyon" filmi operatorun işlədiyi son ekran əsəridir. Tədbirdə daha sonra əməkdar incəsənət xadimləri Rafiq Quliyev və Rafael Qəmbərov çıxış edərək görkəmli sənətkarla bağlı xatirələrini bölüşdülər. X.Babayevin filmlərinin əbədiyaşar ekran əsərləri olduğu vurğulandı.

Sonda sənətkarın qızı Lalə Babayeva çıxış edərək tədbirin təşkilatçılarına və iştirakçılarına təşəkkürünü bildirdi.

**Savalan FƏRƏCOV**



# Bizə yahu söylədən Mark...

## Bu, bir təəssürat yazısı...

əvvəli səh. 1-də

Markın ifası kimi adını da adda-budda eşitmişdik. Onun kaman, Azərbaycan muğamı sevdasından da xəbərdar idik. Nəhayət ki, canlı dinləmək şansımız da oldu. Mayın 25-də Heydər Əliyev Sarayında iyirmi il öncə Azərbaycanda kamança təhsili almış Mark Eliyahunun solo konserti oldu.

Kimdir bu Mark? Mark Eliyahu 1982-ci ildə Dağıstanda yəhudi əsilli məşhur musiqiçi, bəstəkar Peres Eliyahunun ailəsində doğulub. 7 yaşında ikən valideynləri ilə İsrailə köçüb. Sonra...

"...On altı yaşım olanda evdən çıxıb özümü və öz musiqimi tapmaqdan ötrü musiqi səyahətinə yollandım. Azərbaycanın milli musiqi aləti kamançanı ilk dəfə eşidəndə anladım ki, axtardığımı tapdım. Bakıya gəldim və iki il Ədalət Vəzirovdan kamança çalmağı öyrəndim".

Habil Əliyev sənətinin heyranı olan Mark Eliyahu böyük sənətkarla da görüşüb. Markın kamançaya bəslədiyi məhəbbət mərhum Habil Əliyevə necə təsir edibmişsə, o öz kamançalarından birini bu gəncə bağışlayıb.

Aradan ötən iyirmi ildə Mark atası ilə birlikdə yaratdığı qrupla dünya səhnələrini fəth etməkdədir. Elə Bakı konsertində də musiqiçi etiraf etdi ki, ona bu şöhrəti Azərbaycan kamanı qazandırıb. Azərbaycan, türk, İran və ərəb musiqisindən məharətlə bəhrələnən Mark Eliyahu kamança ilə yanaşı, saz da çalır. Öz bəstələrində milli musiqi alətlərinin səslənişini zərb alətləri və elektron musiqi ilə qəribə və çox maraqlı tərzdə qovuşdurmağa nail olmuş ifaçının konserti insanı sonu görünməyən və dərk edilməyən musiqi qalaktikasına aparır. Mark Eliyahu konsertdə tanınmış, indiyədək müxtəlif disklərdə yer almış kompozisiyaları ilə məxsusi Bakı konserti üçün yazdığı yeni əsərləri də təqdim etdi. Həmin əsərlərdən birinin ifası isə hər kəs üçün xoş sürpriz oldu. Mark səhnəyə tanınmış xanəndə, Əməkdar artist Bəyimxanım Vəliyevanı dəvət etdi. O, bəstəkar-ifaçının Məhəmmədhüseyn Şəhriyarın "Ulduz sayaraq" şeirinə bəstələdiyi «Yadındadır...» (Do you remember) kompozisiyasını qrupun müşayiəti ilə ifa etdi.

...Mark Eliyahunun yalnız musiqinin ən yüksək məqama qaldırıldığı, adi işıq effektlərindən istifadə ilə alaqaranlıq səhnədə cəmi 4 musiqiçinin iştirakı ilə yaratdığı ali sənət atmosferi, Azərbaycan tamaşaçısına onun bütün sivilizasiya tarixini musiqi dili ilə danışan konsertdəki hər kompozisiya diqqətlə dinlənildi, gur alqışlar və köksləndən qopan heyranlıq nidaları ilə qarşılandı. Ümumi təəssüratı isə yaqin beləcə izhar etmək olar:

Yahu, Mark, bir daha yahu!

**Gülcahan MİRMƏMMƏD**

№39 (1624)
31 may 2019
www.medeniyyet.az

Hüseynqulu Sarabski – 140

# Azərbaycan səhnəsinin fəxri



Bu il səhnəmizin ilk Məcnunu, görkəmli opera müğənnisi, pedaqoq, rejissor, dramaturq, Xalq artisti Hüseynqulu Sarabskinin (1879-1945) 140 illiyidir. Prezident İlham Əliyev böyük səhnə xadiminin yubileyinin qeyd olunması haqqında sərəncam imzalamışdır.
Milli professional teatr tarixində Hüseynqulu Sarabskinin xüsusi xidmətləri var. Belə sənətkarlar Azərbaycan incəsənətində, mədəniyyətində nadir və əvəzolunmaz şəxsiyyətlərdir. Sənət, maariflənmə və tərəqqi yolunda bütün varlıqları ilə çalışan, mövcud çətinliklərə əzmlə sinə gərən, tutduqları amala sonadək sadiq qalan belə sənətkarların adı əbədi olaraq tarixə düşmüşdür.

H.Sarabskinin fəaliyyəti son dərəcə geniş və müxtəlif olmuşdur. O həm opera səhnəsində, həm dramatik teatrda müğənni və aktyor kimi çıxış etmiş, rejissorluq sahəsində çalışmış, teatr üçün dram əsərləri yazmış, mahnı bəstələmiş, folklorşünaslıqla məşğul olmuş, musiqinin tədrisi ilə bağlı pedaqoji iş aparmış, ictimai xadim kimi fəaliyyət göstərmişdir. Bütün bu aspektləri sənətkar tam bir vəhdət halında öz yaradıcılığında cəmləşdirmişdir.

Görkəmli sənətkarın yaradıcılıq fəaliyyəti Azərbaycanın ictimai-siyasi həyatının çox çətin və mürəkkəb dövrünə təsadüf etmişdir. Köhnə Bakının mədəni həyatında bir tərəfdən sabit müsəlman-Şərq qayda-qanunları, digər tərəfdənsə Qərbmeyilli yeniliklər qovuşaraq zəngin bir mühit yaradırdı. Məhz belə bir mühit proqressiv təfəkkürlü şəxsiyyətlər üçün geniş imkanlar açırdı. Onun uşaqlıq illəri milli adət-ənənələrə bağlı mühitdə keçmişdir ki, bu da balaca Hüseynqulunun formalaşmasına güclü təsir göstərmişdir. O, müxtəlif məişət və dini mərasimlərin fəal iştirakçısı və ifaçısı olmuşdur. Bu mərasimlərdə səslənən müxtəlif oxumalar, mahnılar H.Sarabskinin uşaq yaddaşında dərin iz qoymuş və onun gələcəkdə ifaçı kimi yetişməsinə xüsusi təkan vermişdir.

XX əsrin əvvəllərində Bakıda xüsusilə teatr mədəniyyəti dinamik inkişaf edirdi. Bu zaman paytaxtda Rusiyadan müxtəlif teatr truppalarının, hətta italyan operasının, bir çox məşhur ifaçıların qastrolları reallaşır, müxtəlif xarakterli konsertlər təşkil olunurdu. Şübhəsiz ki, bütün bunlar H.Sarabskinin yaradıcı düşüncəsinə güclü təsir göstərir və onun teatr sahəsinə getdikcə daha da marağını artırır, bu sənətə dərindən bağlayırdı. Bu mühitdə Azərbaycan milli teatr sənəti maarifçilik funksiyasını öz üzərinə götürərək dövrün tələb olunan ideyalarını təbliğ edir və bununla da tərəqqipərvər xarakter qazanırdı. Məhz belə bir şəraitdə gənc H.Sarabski tərəqqini gücləndirən fəal maarifçilər ordusuna qoşulur. Onun fəaliyyəti Azərbaycanın görkəmli musiqi və teatr xadimləri, maarifçiləri olan Ü.Hacıbəyli, M.Maqomayev, H.Ərəblinski, M.Əliyev, Ə.Haqverdiyev, N.Nərimanov, C.Məmmədquluzadə, R.Əfəndiyev və başqalarının yaradıcılıq fəaliyyəti ilə sıx bağlı olmuşdur.

H.Sarabski teatr səhnəsində ilk addımını 1902-ci ildə "Müsəlman dram cəmiyyəti"ndə atmışdır. Görkəmli dramaturq və ictimai xadim N.Nərimanovun təşkil etdiyi bu teatr həvəskarları dərnəyində onun oynadığı ilk rol "Dilin bəlası" komediyasındakı Rəsul obrazı olmuşdur. Bunun ardınca H.Sarabskinin teatr həvəskarları səhnəsində altı il davam edən çıxışları "Müsibəti-Fəxrəddin", "Axşam səbri xeyir olar", "Əbdül Üla", "Qazavat", "Otello", "Əl-Mənsur", "Quldurlar" və digər tamaşalarda davam etmişdir. Bundan əlavə, o, XX əsrin əvvəllərində Bakıda fəaliyyət göstərən "Nicat", "Səfa" mədəni-maarif cəmiyyətlərinin dram dəstələrində, özünün təşkil etdiyi "Müsəlman opera truppası"nda, A.M.Şərifzadənin rəhbəri olduğu, Zülfüqar və Üzeyir bəy Hacıbəyli qardaşlarının fəal iştirak etdiyi "Müsəlman artistləri ittifaqı"nda aktyor kimi fəaliyyət göstərmişdir. Bu təşkilatların hazırladıqları tamaşalarda H.Sarabski oynadığı dramatik rolları böyük ustalıqla yaradaraq öz vəzifə borcunu layiqincə yerinə yetirirdi. O, yerli müəlliflərlə yanaşı, V.Şekspir, H.Heyne, N.Qoqol, F.Şiller, K.Bexmetov və başqalarının əsərlərinin tamaşasında oynayırdı. Bütün bunlarla bərabər, H.Sarabski özü də teatr üçün pyeslər qələmə almışdır. Bunlardan "Axtaran tapar", "Cəhalət", "Nə doğrarsan aşına, o da çıxar qaşığına" repertuara daxil edilərək səhnələşdirilmişdir.

H.Sarabskini istedadlı və unudulmaz aktyor kimi uzun zaman yaddaşlarda saxlayan onun 1908-ci il yanvarın 12-də milli opera teatrı tarixində əlamətdar hadisə olan Ü.Hacıbəylinin "Leyli və Məcnun" muğam operasının ilk tamaşasında Məcnun rolunu ifa etməsi idi. Həqiqətən, bu obrazın mahir və əvəzolunmaz ifaçısı olduğu üçün "Məcnun", "səhnənin yaraşığı" titullarını qazanır. O, Məcnunu səhnədə uzun müddət (360 dəfə) eyni həvəs və məharətlə yaratmışdır. Məhz opera səhnəsində qazanılan bu ilk uğurla Ü.Hacıbəyli və H.Sarabski arasında sıx yaradıcılıq əlaqələri formalaşır. Bu yaradıcı əməkdaşlıq nəticəsində Azərbaycan musiqi mədəniyyətinə yeni-yeni opera və operettalar daxil olur.

"Leyli və Məcnun"un ilk tamaşasından dərhal sonra dövri mətbuatda H.Sarabskinin yüksək istedadı, parlaq, ecazkar ifası və professionallığı haqqında müxtəlif rəylər dərc olunur. Həmin yazılarda operanın müvəffəqiyyət qazanmasında bəstəkar dühası ilə yanaşı, H.Sarabskinin təkrarsız ifasının da mühüm rol oynadığı vurğulanır. Sənətkarın adı uzun müddət "Leyli və Məcnun" operasının afişalarını, anonslarını bəzəmişdir. Aktyor həmçinin Üzeyir bəyin "Şah Abbas və Xurşudbanu", "Əsli və Kərəm", "Rüstəm və Söhrab", "Şeyx Sənan", "O olmasın, bu olsun", "Arşın mal alan", "Ər və arvad" və s. əsərlərinin səhnə taleyində mühüm rol oynamışdır. O, sanki bu musiqili tamaşaların əsas "aparıcısı", başlıca və mərkəzi "obrazı" idi. Bütün bunlar Azərbaycan musiqili teatrının təşəkkülündə və inkişafında H.Sarabski sənətinin böyüklüyünü, əhəmiyyətini və özünəməxsusluğunu təsdiq edir. Görkəmli səhnə xadiminin iştirak etdiyi bu tamaşalar təkcə Bakıda, Azərbaycanın müxtəlif guşələrində deyil, İranda, Gürcüstanda, Rusiyanın şəhərlərində də böyük müvəffəqiyyətlə nümayiş olunurdu. Hər bir tamaşadan sonra onun ünvanına təşəkkürlər, minnətdarlıqlar bildirilirdi.

Diqqətəlayiq haldır ki, H.Sarabski bu tamaşalarda təkcə ifaçılıq qabiliyyətini deyil, həm də rejissorluq bacarığını da göstərmişdir. Bu da onun yaradıcılıq fəaliyyətinin vacib aspektlərindən biridir. Bizə məlum olan arxiv materiallarına görə, o həm opera, həm də dramatik tamaşaların rejissoru olmuşdur. Xüsusilə, onun M.Maqomayevlə birgə 1914-cü ildə təşkil etdiyi "Müsəlman opera truppası"nda rejissorluq fəaliyyəti bir sıra opera və musiqili komediyaların səhnələşdirilməsinə gətirib çıxarmışdır. İlk dəfə olaraq bu opera truppasında H.Sarabskinin rəhbərliyi altında A.Rubinşteynin "Sulamif" operasının Azərbaycan dilinə tərcümə olunaraq ifa edilməsi Azərbaycan opera sənəti tarixində əlamətdar hadisəyə çevrilir. Bu, artıq Şərq üslublu muğam opera ifaçılarının klassik Avropa tipli opera əsərlərini də ifa etməyə hazır olduqlarını göstərirdi. Əlbəttə, az bir vaxt ərzində belə bir ciddi addımın atılması Azərbaycan musiqili teatrı üçün mühüm tarixi irəliləyiş idi.

XX əsrin 20-30-cu illəri Azərbaycan milli opera teatrının ən çətin, mürəkkəb, eyni zamanda təhlükəli dövrü idi. Türk operasının gələcək taleyi, yaşayıb-yaşamaması uğrunda gedən çox ciddi mübarizədə H.Sarabski öz məsləkdaşları Ü.Hacıbəyli, M.Maqomayev və başqaları ilə birlikdə qəti mövqeyini bildirməkdən çəkinməmişdir. Bütün çətinliklərə və təqiblərə baxmayaraq, o, əvvəlki kimi sevimli obrazlarını məsuliyyətlə ifa etməkdə davam edirdi. Ömrünün sonunadək H.Sarabski Azərbaycan Dövlət Opera və Balet Teatrının ən öndə gedən aktyorlarından biri kimi fəaliyyət göstərdi.

H.Sarabski həm də yorulmaz pedaqoq olmuşdur. O, XX əsrin 20-ci illərindən ömrünün sonunadək kadr hazırlığında fəal iştirak etmişdir. Onun Azərbaycan Dövlət Konservatoriyasında, A.Zeynallı adına Musiqi Texnikumunda muğam sinfi üzrə apardığı dərslər bir sıra istedadlı xanəndələrin yetişməsinə imkan vermişdir. Bunlardan Sara Qədimova, Şövkət Ələkbərova, Əlövsət Abdullayev və başqaları öz müəllimlərinin sənət yolunu davam etdirmişlər. Onun tələbələrinə ünvanladığı tövsiyələri bir sıra məqalələrində əksini tapmışdır. Məsələn, AMEA-nın Əlyazmalar İnstitutunun arxivində saxlanılan "Muğamat və el mahnıları haqqında" məqaləsində o, musiqi təhsili, kadr hazırlığı, muğamın tədrisi, ifaçılıq xüsusiyyətləri, muğamda söz və səsin qarşılıqlı əlaqəsi kimi məsələlərin izahında öz mövqeyini ortaya qoyur, dərin biliyini göstərir və xalq yaradıcılığının, milli musiqinin düşmənlərinə layiqli cavablar verirdi.

H.Sarabski xanəndə hazırlığına ciddi münasibət bəsləyirdi. O, yalnız elmlə təcrübənin üzvi birliyi əsasında yüksək səviyyəli, professional ifaçının yetişməsini mümkün hesab edirdi. Onun dərsləri musiqi nəzəriyyəsi və tarixi mülahizələri ilə müşayiət olunur, özünün dərin məzmunu və düzgün metodu ilə seçilirdi.

İstedadlı səhnə xadiminin ictimai fəaliyyəti müxtəlif sahələrdə təzahür edir və sənətkarın maraq dairəsinin genişliyini göstərir. O, ilk növbədə, əvvəldə qeyd etdiyimiz kimi, "Müsəlman opera truppası"nın təşkilatçısı olmuş, 1928-ci ildə Bakıda aşıqların I qurultayının təşkilində və keçirilməsində fəal iştirak etmiş, 1932-ci ildə Azərbaycan Dövlət Konservatoriyasının nəzdində Elmi-tədqiqat musiqi kabinetinin yaradılmasına və fəaliyyətinə yaxından köməklik göstərmiş, həmin il "Respublika Xalq Yaradıcılığı Evi"nin yaradılması təklifini vermiş və ömrünün sonunadək ona rəhbərlik etmişdir. Bundan əlavə, H.Sarabskinin 20-ci illərdə Mərkəzi Fəhlə klubunda, Partiya Məktəbində teatr dərnəkləri təşkil etməsi, müxtəlif təşviqat-təbliğat briqadalarının rəhbəri kimi fəaliyyət göstərməsi onun ictimai fəallığını aydın şəkildə ortaya qoyur.

Ötən əsrin 30-cu illəri ölkəmizdə xor kollektivlərinin təşkili ilə də əlamətdar olmuşdur. H.Sarabski 1932-ci ildə 30 nəfərdən ibarət Talış xorunun yaradılmasına müvəffəq olmuş və bədii rəhbər kimi az bir vaxt ərzində böyük uğurlar qazanmışdır.

Hazırda H.Sarabskinin sənəti, onun musiqili teatr səhnəsində açdığı ilk cığırlar artıq aydın istiqamət almış geniş bir yola çevrilmişdir. O, dahi Ü.Hacıbəylinin də qeyd etdiyi kimi, yaratdığı obrazları ilə "öz-özündə elə bir məharət göstərdi ki, sair artistlər üçün də bir nümunə, tam bir məktəb oldu".

1928-ci ildə görkəmli sənətkarın səhnə fəaliyyətinin 20 illik yubileyi qeyd olunur. H.Sarabski yaradıcılığının tədqiqatçısı Qubad Qasımov sənətkara həsr etdiyi məqalələrinin birində yazırdı: "Onun 20 illik yubileyi türk səhnəsinin yubileyidir, türk incəsənətinin fəxridir".

Bu il 140 illik yubileyi qeyd edilən görkəmli səhnə, sənət fədaisi Hüseynqulu Sarabskinin həyat və yaradıcılıq yolu həm də Azərbaycan musiqili teatrının, milli operasının tarixidir.

**Rəna Məmmədova-Sarabskaya**
**AMEA-nın müxbir üzvü,**
**sənətşünaslıq üzrə**
**elmlər doktoru, professor**

Vəli Xuluflu – 125

# Xalq yaddaşına işıq salan tədqiqatçı

Qasırğalar gələndə təkcə güllər, çiçəklər qırılıb tökülmür. Həm də qollu-budaqlı ağaclar parçalanır, yarılır, yıxılır. Ötən əsrin 30-cu illərinin repressiya dalğaları da adi insanları deyil, xalqının elminə, mədəniyyətinə xidmət edən zəka sahiblərini qərq elədi. 1937-ci il qurbanlarının tale kitabını vərəqlədikcə tarixin daş yaddaşının arasından gələn fəryad səsləri insanı dəhşətə gətirir. Həmin fəryad edənlərdən biri də folklorçu alim, tarixçi, latın qrafikalı əlifbanın fəal tərəfdarı və Yeni Əlifba Komitəsinin üzvü Vəli Xulufludur. Qısa ömründə fəaliyyəti, elmi-bədii yaradıcılığı doğma xalqına əvəzsiz xidmət, vurğunluq nümunəsi olan qaynar təbli alimin bu il 125 illik yubileyidir.

Vəli Məmmədhüseyn oğlu Xuluflu 1894-cü il mayın 26-da Şəmkir rayonunun Xuluflu kəndində anadan olub. Mollaxanada və "Mədrəseyi-ruhaniyyə" məktəbində oxuyub. Təhsilini müvəffəqiyyətlə başa vuraraq 1913-cü ildən oxuduğu ruhani mədrəsəsində dərs deməyə başlayır. 1917-də Gəncə Müəllimlər İnstitutuna daxil olur. Azərbaycanın sovetləşməsindən sonra Gəncədə qəza Partiya Komitəsinin katibi (1920-1922) vəzifəsində işləyir. Ancaq çox çəkmir, partiya sıralarından çıxarılır.

1922-1927-ci illərdə Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində təhsil alır. Yeni Əlifba Komitəsində təlimatçı kimi işə düzəlir. Paralel olaraq "Bakı fəhləsi" nəşriyyatı və "Azərnəşr"in Bədii ədəbiyyat şöbəsi ilə əməkdaşlıq edir. Azərbaycan Dövlət Elmi Tədqiqat İnstitutunda elmi katib vəzifəsinə (1929-1932) irəli çəkilir. Bu elm ocağının yenidən təşkili zamanı isə Dil, Ədəbiyyat və İncəsənət İnstitutuna direktor təyin edilir. Onun rəhbərliyi ilə şifahi xalq ədəbiyyatının toplanması və nəşri sahəsində sistemli iş aparılır. 1927-ci ildə müəllifin tərtibatında "El aşıqları" toplusu işıq üzü görür. Kitaba Qurbani, Xəstə Qasım, Dədə Ələsgər,



Aşıq Hüseyn Şəmkirli və başqalarının tərcümeyi-halları ilə yanaşı, yaradıcılıqlarından yazıya aldığı yüzdən çox qoşma, gəraylı, təcnis, habelə Hüseyn Şəmkirliyə məxsus "Reyhan" dastanını da daxil edib. Mütəxəssislərin fikrincə, V.Xuluflu həmin kitabla o, eyni zamanda o vaxtdan bəri nəşr edilən aşıq şeirlərinin toplanılma və tədqiqi prinsiplərinin əsasını qoyub. Tədqiqatçıya görə, aşıq yaradıcılığı elin ruhudur, lazım olanda qılıncdan da kəsərlidir...

Azərbaycan SSR Xalq Maarif Komissarlığında Universitet və elmi tədqiqat müəssisələri idarəsinin rəisi və Dövlət Elmi Şurasının sədr müavini, eyni zamanda SSRİ EA Azərbaycan şöbəsinin baş mütəxəssisi olan V.Xuluflu çox işgüzar, operativ fəaliyyəti ilə diqqətləri cəlb edirdi. O, Yeni Əlifba Komitəsinin üzvü kimi Qazaxıstan, Özbəkistan, Türkmənistan, Tacikistan respublikalarında, Krım, Kazan və digər şəhərlərdə səfərlərdə olub. 1924-cü ildən respublikanın baş elmi müəssisəsi olan Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyətinin işlərində fəal çalışıb.

V.Xuluflu 1928-ci ildə "Tapmacalar" kitabını nəşr etdirir. Tapmacaların ideya və bədii xüsusiyyətlərindən bəhs edən yığcam, lakin dərin məzmunlu müqəddimədə Azərbaycanda o dövrədək heç tədqiq olunmayan tapmacaların əhəmiyyəti, xalq ədəbiyyatı növləri içərisində mövqeyi və s. haqda danışan müəllif onların xalq həyatı, məişəti, yaşayış tərzi, məşğuliyyəti ilə əlaqədar yarandığını, xalq həyatının "matematikası" olduğunu söyləyir: "El ədəbiyyatının başqa növlərinə nisbətən tapmacaların materialı daha real və daha təbiidir. Təbiətdə və həyatda nə görülürsə, tapmaca da onun üzərində qurulur". Yorulmaz folklorşünas tapmacaların tək elə toplanması ilə deyil, onların variantlılığını da təhlillərlə ortaya qoyub. Kitabda verilmiş 726 tapmaca əlifba sırası ilə düzülüb və hər birinin yazıya alındığı yerlər də qeyd edilib.

Azərbaycanda "Koroğlu" dastanının özünəməxsus söylənmə, toplanma, nəşr və tədqiq tarixi var. 1920-ci illərin əvvəllərindən Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyəti də "Koroğlu"nun toplanmasına təşəbbüs göstərib. Müxtəlif mətbuat orqanlarında eposdan nümunələr, seçmələr, yeni yazıya alınmış parçalar çap olunub. Həmin illərdə bu sahədə ən səmərəli fəaliyyət göstərənlərdən biri isə V.Xuluflu idi. Alim 1927-ci ildə "Koroğlu"nun iki qolunu - "Toqat səfəri" və "Bağdad səfəri"ni, 1929-cu ildə isə latın qrafikasında Hənəfi Zeynallının redaktorluğu ilə "Koroğlu"nun on qolunu yenidən nəşr etdirib. O, Koroğlu əhvalat və hadisələrini Tovuzda Aşıq Hüseyn Bozalqanlıdan toplayıb. Dastanın bu nəşrinin önəmli məqamlarından biri "Gürcüstanda yaşayan Ahıska türklərindən "Koroğlu" dastanıdır. Bu, müstəqil və çox dəyərli bir variantdır. "Ahıska türklərində "Koroğlu" aşığın söylədiyi mətndir, o dəyişdirilməyib, işlənməyib və redaktə olunmayıb. "Gürcüstanda yaşayan Ahıska türklərindən "Koroğlu" variantını Məhəmməd Bidzinov V.Xulufluya təqdim edib.

Ümumiyyətlə, tanınmış tədqiqatçılar V.Xuluflunu "Azərbaycan ədəbiyyatşünaslığında xüsusi azman imza", "folklorumuzun toplanması, nəşri və tədqiqində ən ardıcıl və ən fədakarlardan biri", "elmi və xəlqi ziyalı", "səbrü-qərar kanı" kimi frazalarla təqdim və yad edirlər. Bu deyimlərdən sonuncusu daha çox onun ötən əsrin 20-ci illərinin ortalarında dəfələrlə səfər edib, həftələr-aylarla qaldığı bölgələrimizdə, bolşevizmin mənəvi-psixoloji təcavüz "eroziya"sına məruz qalmış xalqımızın qeyrət-qəhrəmanlıq ruhunu qaldırmaq sevda-sevgiləri ilə bağlıdır.

V.Xuluflu 43 illik ömür yolunda respublikada yüksək elmi təfəkkürə malik bir alim kimi ictimai fəaliyyətində, mədəniyyətimizin tarixində silinməz izlər qoyub. Bu cür milli, elmi, məntiqi düşüncəyə malik olan alim 30-cu illər repressiyasından keçə bilməzdi. O da milli düşüncə karvanına qoşulduğu üçün H.Cavid, Ə.Cavad, M.Müşfiq və başqalarının acı taleyini yaşamalı idi... V.Xuluflu ağlasığmaz bir terrorda günahlandırılır. Əksinqilabçı, millətçi təşkilatın üzvü olmasına dair arayış tərtib edilir və o, həbs olunur. Evində axtarış aparılır, saxta sənədlər tərtib edilir. Xəbəri olmadığı əməlləri onun boynuna qoymaq üçün istintaqı aparan Qalstyan alimin həbs olunmasından düz altı ay sonra ağır işgəncələr verməklə irəli sürülmüş ittihamları "etiraf etməyinə" nail olur. 13 oktyabr 1937-ci ildə sədr Matuleviç, üzvlər Zaryanov, Jiqurun iştirakı ilə SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının səyyar sessiyasında V.Xuluflu ən ağır cəzaya – güllələnməyə məhkum edilir. Hökm elə o gecə yerinə yetirilir… Bundan sonra alimin həyat yoldaşı Fatma Xuluflu da 8 illik həbs cəzasına məhkum olunur.

1957-ci ildə F.Xuluflu barəsində cinayət işi xətm olunur. Fatma xanımın müraciətindən sonra SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının qərarı ilə Vəli Xuluflu haqqında qərar da ləğv edilir və görkəmli tədqiqatçıya bəraət verilir...

**Aynurə ƏLİYEVA**

## İsraildə "Nəsimi – 650" poeziya müsabiqəsi keçirilib

İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyasının ("Aziz") təşəbbüsü ilə böyük Azərbaycan şairi İmadəddin Nəsimi adına poeziya müsabiqəsi keçirilib. Apreldə elan olunan müsabiqə barədə yerli qəzetlərdə, "Aziz" Assosiasiyasının saytında, sosial şəbəkələrdə və digər informasiya resurslarında məlumat verilib.

İki ay ərzində İsrail, Azərbaycan, ABŞ və Rusiyada yaşayan müəlliflərdən rus, Azərbaycan, cuuri və ivrit dillərində onlarla şeir daxil olub. Mayın 15-dək "Aziz" Assosiasiyasının saytında internet-səsvermə keçirilib və yarımfinala vəsiqə qazanan 15 iştirakçı müəyyən olunub.

Münsiflər heyətinə məxsusi olaraq Azərbaycandan gəlmiş Anna İbrahimbəyova (Xalq yazıçısı Maqsud İbrahimbəyovun həyat yoldaşı – red.) başçılıq edib.

Yarımfinal mərhələləri İsrailin üç müxtəlif şəhərində keçirilib. Təl-Əvivdə, Rusiya Mədəniyyət Mərkəzində keçirilən birinci yarımfinalda İsrail Yazıçılar İttifaqları Federasiyasının üzvü Semyon Qavrilov qalib olub. Afula şəhərindəki Azərbaycan Mədəniyyət Mərkəzində keçirilən ikinci yarımfinalda Azərbaycanın Milli Qəhrəmanı Sahil Məmmədova həsr olunmuş "Mənim kumirim" şeiri ilə doqquzyaşlı Konstantin Vararu qalib gəlib. Kiryat-Yam şəhərinin "Mifalsim" klubunda keçirilən üçüncü yarımfinalın qalibi Şahin Göyçaylı olub.

Mayın 22-də Kiryat-Byalik şəhərində müsabiqənin finalı keçirilib. Münsiflər heyəti birinci yeri "Mənim kumirim" şeirinin doqquzyaşlı müəllifi K.Vararuya verib. Qalibə Azərbaycana pulsuz səfər mükafatı, finalçılara hədiyyə təqdim olunub.

Müsabiqə finalçılarının şeirləri İsrail və Azərbaycanın ədəbi nəşrlərində dərc ediləcək.

# “Azərbaycanım” uşaq rəsm festivalına yekun vurulub

Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyi, Təhsil Nazirliyi, 3 nömrəli Uşaq-gənclər inkişaf mərkəzi, Azərbaycan Televiziyası və Radiosu, Xətai Rayon İcra Hakimiyyəti, Rəssamlar İttifaqının dəstəyi, Azərbaycan Dövlət Rəsm Qalereyası və Xətai Sənət Mərkəzinin təşkilatçılığı ilə “Nəsimi ili” çərçivəsində 28 May – Respublika Gününə həsr olunmuş “Azərbaycanım” II Respublika uşaq rəsm festivalı keçirilib.

Festival çərçivəsində iki yaş kateqoriyasında (12 yaşa qədər və 12-17 yaş) təşkil olunan müsabiqələrin sərgiləri ötən həftə gerçəkləşmişdi. Həmin müsabiqələrdə fərqlənən uşaqların



iştirakı ilə mayın 24-də “Azərbaycanım” II Respublika uşaq rəsm festivalının yekun tədbiri keçirilib.

Tədbir Xətai Rayon İcra Hakimiyyətinin həyətində açıq havada canlı şəkil çəkmək – plenerlə başlayıb.

Mədəniyyət Nazirliyinin İncəsənət şöbəsinin sektor müdiri Qalib Qasımov festival iştirakçılarını salamlayıb və bu kimi tədbirlərin əhəmiyyətindən danışıb. Rəssamlar İttifaqının katibi, Xalq rəssamı Ağaəli İbrahimov, Xalq rəssamı Arif Hüseynov, Xətai Rayon İcra Hakimiyyətinin nümayəndəsi Pənah İmanov və Xətai Sənət Mərkəzinin direktoru Zahid Əvəzov festival iştirakçılarına xoş arzularını çatdırıblar.

Plener bitdikdən sonra uşaqlar üçün Milli İncəsənət Muzeyinə ekskursiya təşkil olunub. Sonra Xətai Sənət Mərkəzində uşaqların plenerdə çəkdikləri rəsmlərin qiymətləndirilməsi keçirilib.

Qiymətləndirmənin nəticələrinə əsasən, Ceyran Rəhmanova birinci, Mehin Abbaslı II və Rəsul Osmanlı III yerlərə, habelə 12 nəfər iştirakçı həvəsləndirici mükafatlara layiq görülüb.

Festival bədii hissə ilə yekunlaşıb.

*əvvəli səh. 1-də*

# Uşaq kinosunun mahiyyəti

Baş qəhrəman Lətif ögey anasının qəddarlığı ucbatından evdən gedir. Bir çox çətinliklərlə üzləşir. Lakin qoçaqlığı və düzgünlüyü sayəsində ətrafındakı məkrli insanların ifşa olunmasına səbəb olur. “Lətif” filmi zamanı və cəmiyyəti təqib edən kinoya və kinematoqrafçılara uşaqların da həyatını diqqətdə saxlamaq, onları narahat edən məsələləri gündəmə gətirmək mesajını verdi. Bu filmdən sonra uşaqların həyatından bəhs edən “Dostlar” (rej. A.Quliyev), “İki yoldaş” (A.Makovski), “Rəqs edən bağalar”, “Dəcəl dəstə” (hər ikisi – rej. A.Popov və Q.Salamzadə) və başqa filmlər çəkildi. Kinonun səssiz mərhələsində çəkilən bu filmlərdə uşaq və yeniyetmələrin həyat və düşüncə tərzi xarakterizə olunub.

Sonrakı illərdə isə uşaqların şəxsiyyət kimi formalaşmasına örnək olacaq nümunələr, ailə-məişət problemlərinin uşaq həyatına vurduğu zərbənin fəsadları, uşaq psixologiyasının və əxlaq normalarının doğru təlimatlandırılması metodu, eyni zamanda təlim-tədris mərkəzlərinin bu sahədə rolu uşaq kinosunda və ya uşaqların həyatından bəhs edən filmlərdə əksini tapdı. Azərbaycan uşaq kinosunun və nağıl-filmlərin inkişafında müstəsna xidmətləri olan, eyni





zamanda sosial mövzulu kinopovestlərdə uşaq psixologiyasını təhlil edən rejissorlarımızdan Mikayıl Mikayılov, Əlisəttar Atakişiyev, Şamil Mahmudbəyov, Tofiq İsmayılov, Gülbəniz Əzimzadə, Rafis İsmayılov, Ənvər Əbluc və digərlərinin quruluş verdiyi müxtəlif janrlı filmlər kiçiklərlə yanaşı böyüklərin də rəğbətini qazandı.

Azərbaycan kinosunda uşaq psixologiyasını, xarakterini, dünyagörüşünü, ailədaxili hadisələrin təsirini təhlil və tədqiq edən ilk uğurlu ekran əsəri rejissor Həbib İsmayılovun “Ögey ana” filmidir. Filmdə adi hesab etdiyimiz və doğmalarımıza, yaxınlarımıza ərköyünlük edib yüklədiyimiz ailə-məişət problemləri zəminində ən çox uşaqların əziyyət çəkdiyi vurğulanır. Ailədaxili problemlərin həlli, eyni zamanda uşaq psixologiyasının müdaxilələrdən, müxtəlif fəsadlardan qorunması üçün vacib olan önəmli və incə nüanslar filmin leytmotivini təşkil edir. Baş qəhrəman İsmayıl (Ceyhun Mirzəyev) atasının ikinci dəfə ailə qurması ilə barışmır, onun yeni həyat yoldaşına və ögey bacısına olan sevgisini qəbul etmir. Nənəsinin (Qəmər xala – Həqiqət Rzayeva) qısqanclıq zəminində formalaşdırdığı yanlış fikirlər, aşırı məhəbbət göstəricisi olan ərköyünlüyü və atasının işlə bağlı ailədən kənarda çox olması, oğlunun tərbiyəsi ilə məşğul ola bilməməsi gələcəyi səhv istiqamətə yönələcək yeniyetmənin həyatından xəbər verir. Doğru insan, gözəl ana, nəcib qadın xüsusiyyətlərinin etalonu olan Dilarənin (Nəcibə Məlikova) sayəsində İsmayılın xarakteri yaxşı mənada dəyişir, ailədəki narazılıqlar aradan qalxır, psixologiyası məntiqli və normal şəkildə formalaşır, ailəyə, cəmiyyətə layiqli övlad kimi yetişir. Ailə-məişət mövzusundan bəhs edən, sosial problemlərin başlanğıcını şərh edən ekran əsərinin ideyası bütün dövrlər üçün vacib və aktualdır. Bu filmdən sonra (1950-ci illərin sonlarından etibarən) Azərbaycan kinosunda uşaqlar üçün çəkilən filmlərin istehsalına diqqət artdı.

Görkəmli kinorejissor Əlisəttar Atakişiyevin çəkdiyi nağıl janrlı ekran əsərlərindən “Bir qalanın sirri”, “Sehrli xalat”, “Qərib cinlər diyarında” filmləri forma və məzmun etibarilə fərqli olsa da, ümumi ideyasında torpağa, vətənə məhəbbət, ailəyə sevgi, hörmət, mərd və cəsur xüsusiyyətlər təlqin olunur. Bununla yanaşı, rejissorun “Bizim küçə” filmində gənc qız Saranın şəxsində vətəndən illərlə uzaqda olmasına, minbir əzab çəkməsinə baxmayaraq, anasına, elinə-obasına qovuşmağa can atan mərd azərbaycanlı qızının yenilməzliyini və şücaətlərini görürük. Örnək timsallı xarakterə malik olan Sara obrazı müasir dövrün qəhrəmanıdır. Bu isə rejissorun yalnız nağıl-filmlərdə yox, eyni zamanda sosial mövzulu ekran əsərlərində də nümunəvi xarakterli personajları düşüncəsində formalaşdırıb, dolğunlaşdırıb, obrazın təfsirində qabarıq şəkildə cəmiyyətin sevimlisinə çevirməsi deməkdir.

Uşaqlarla işləməyi bacarmaq rejissorlardan böyük səbir, təmkin və pedaqoji təcrübə tələb edir. Bu kimi keyfiyyətlərin daşıyıcısı olan görkəmli kinorejissor Şamil Mahmudbəyovun quruluş verdiyi “Torpaq. Dəniz. Od. Səma”, “Qaraca qız”, “Şərikli çörək”, “Skripkanın sərgüzəşti” filmlərində də müxtəlif dövrlərə aid olan uşaqların və yeniyetmələrin həyat, düşüncə tərzi, davranışı ətraflı şəkildə təhlil olunub.

Məhz buna görə də adları çəkilən filmlər uşaqlarla yanaşı, böyüklərin də sevərək baxdığı ekran əsərləridir. Müxtəlif dövrlərin həyat faktlarına istinad olunan filmlərdə “uşaqların xarakteri cəmiyyətin və ailələrin güzgüsüdür” prinsipini daşıyır. Vizual ədəbiyyat olaraq zehinləri aydınladan məntiqli uşaq kinosunun məna və dəyəri bu baxımdan misilsizdir.

Sosial mövzulu uşaq filmlərində müxtəlif dövrün hadisələri əks etdirilir. “Torpaq. Dəniz. Od. Səma” və “Şərikli çörək” filmlərindəki hadisələr uşaqlıq illərinə nəzər salan personajların nostalji düşüncələrinə əsaslanır. Torpağına, elinə bağlı zəhmətkeşlərin əhatəsində böyüyən uşaqların ailə şəcərəsindən süzülüb gələn dəyərlərə tapınması, həyat məsələlərinin həllində mühüm qərarların nəticəsində ailə mədəniyyəti prinsiplərini əsas götürməsi şərh olunur. Azyaşlı Kamilin, eləcə də yeniyetmə Vaqifin babalarının fikir və düşüncələrindən bəhrələnməsi, böyüyə hörmət, kiçiyə məhəbbət və bu kimi digər müsbət keyfiyyətlər sonralar onların həyat məsələlərinin həllində təsirsiz ötüşmür. Ata-babalarının doğru həyat missiyası uşaq qəhrəmanların ömür yolunu düzgün istiqamətləndirməsinə, vətəndaşlıq və övladlıq borcunu layiqincə yerinə yetirməsinə imkan yaradır.



Cəmiyyətin tərəqqisində elm və texnikanın inkişafı ilə yanaşı, incəsənətin də mühüm rolu var. Yuxarıda adları çəkilən filmlərdə (1960-70-ci illər) nostalji düşüncələrdə kök salan mənəvi zənginlik prinsipi, cəsurluq, müdriklik, qəhrəmanlıq kimi amillər qabardılırdısa, 70-80-ci illərdə istehsal olunan uşaq kinosunda zamanın tələbinə uyğunlaşdırılmış uşaq obrazlarını gördük. II Dünya müharibəsindən sonrakı quruculuq illərində insanların həyat eşqinin yüksəldilməsi, əhval-ruhiyyəsinin yaxşılaşması istiqamətində incəsənət işçilərinin fəaliyyəti xüsusilə diqqət çəkirdi. Bu mənada uşaqların fərdi təfəkkürlərinin, istedadlarının aşkarlanması, təhsillə yanaşı musiqi savadının inkişafı sənət adamlarını, o cümlədən rejissorlarımızı düşündürən vacib amillərdən idi. Məsələn, istedadlı kinorejissor Tofiq İsmayılov yaradıcılığında uşaqların musiqi duyumunun aşkarlanması, eləcə də filmlərdəki obrazların xarakterlərinin musiqi dili ilə çatdırılmasını görürük. Eyni zamanda musiqili uşaq filmlərində hər bir evdə, ailədə musiqi alətinin olması və uşaqların istedadının vaxtında doğru səmtə yönəldilməsi mesajı da təbliğ olunur. “Mən nəğmə qoşuram”, “Gilas ağacı”, “Musiqi müəllimi”, “Əzablı yollar” filmlərində hadisələr musiqi dili ilə şərh olunur, uşaqlarla davranış qaydalarının incə nüansları emosional şəkildə təhlil edilir. “Mən nəğmə qoşuram” filmində kəndbəkənd, şəhərbəşəhər gəzib istedadları üzə çıxaran Bəhmən dayı Sonanın atası Xudayara bərk əsəbiləşir və qızının istedadının qarşısını almağa çalışmasına sərt münasibət göstərərək deyir: “Qızının on yaşı var. Fitri istedada malikdir. Sən bizim kəndin düşmənisən. Xalqın istedadını boğursan”. Bəhmən kişi və ya onun kimi tərəqqinin, inkişafın təəssübünü çəkənlər haqlıdır. Çünki ucqar bir dağ kəndində olan istedadın kəşf edilib üzə çıxarılması, bacarığının vaxtında düzgün səmtə istiqamətləndirilməsi gələcəkdə onun Azərbaycan mədəniyyətini layiqincə təmsil etməsi deməkdir. Bu mənada sosial mövzulu uşaq filmlərinin ictimai davranış qaydalarının formalaşması və tənzimlənməsi sahəsində rolu böyükdür.

Kinorejissor Rasim İsmayılovun çəkdiyi “Şir evdən getdi”, “Asif, Vasif, Ağasif” filmlərində qayğı və diqqət tələb edən uşaq dünyasının keşiyində durmağımız, onu əlimizdən gəldiyi qədər gözəlləşdirməyimiz tövsiyə olunur. Kinorejissor Ənvər Əblucun çəkdiyi “Qara gölün cəngavərləri”, “Pəncərə” (rej. H.Əblucla birgə), “Ağ atlı oğlan” filmlərində isə uşaq yaşlarından taleyinə keşməkeşli həyat çətinliklərini yaşamaq nəsib olan yeniyetmələrin fərəhsiz, kədərli yaşam tərzi əks olunur, eyni zamanda onların bir çox ibrətamiz davranış qaydaları göstərilir.

Onu da qeyd edək ki, uşaqların dünyagörüşünün formalaşması və həyat haqqındakı təsəvvürlərinin zənginləşməsi istiqamətində animasiya filmlərinin də rolu əvəzsizdir. Bu mənada uşaq psixologiyasını, düşüncə tərzini və xarakterini təhlil edən, uşaqlarla bağlı mühüm problemlərə toxunan dərin məzmunlu, dəyərli filmlərə baxmağa və onları diqqətdə saxlamağa dəyər.

**Şəhla ƏMİRLİ**
**kinoşünas**

## Xatirə təqvimi — 30 may – 2 iyun

### Azərbaycan

**30 may 1862** – Böyük satirik şair Mirzə Ələkbər Sabir (1862-1911) Şamaxıda anadan olub. Ölümündən sonra şeirləri “Hophopnamə” (1912) adlı topluda nəşr olunub.

**30 may 1930** – Şair Fikrət Abbas oğlu Sadıq (1930 – 16.11.2016) Şamaxıda doğulub. Uşaqlar üçün əsərlərin, sənədli filmlərin ssenarilərinin müəllifidir.

**31 may 1898** – Əməkdar artist, xanəndə Zülfü Səməd oğlu Adıgözəlov (1898-1963) Şuşanın Qaradolaq kəndində anadan olub.

**31 may 1922** – Xalq artisti, müğənni Sara Bəbiş qızı Qədimova (1922 - 12.5.2005) Bakıda anadan olub. Filarmoniyanın, Opera və Balet Teatrının solisti olub.

**31 may 1929** – Bəstəkar, Xalq artisti Oqtay Qədir oğlu Zülfüqarov (1929 – 31.8.2016) anadan olub. Uşaqlar üçün çoxsaylı musiqi əsərlərin, 300-dən çox mahnının müəllifidir.

**1 iyun 1936** – Xalq artisti, dirijor Nəriman Abbasqulu oğlu Əzimov (1936 – 19.11.2016) Gəncədə doğulub. Azərbaycan Televiziyası və Radiosunun S.Rüstəmov adına Xalq çalğı alətləri orkestrinin bədii rəhbəri və baş dirijoru olub.

**1 iyun 1950** – Əməkdar artist Tanilla Aysayevna Əhmərova (1950 – 4.8.2015) anadan olub. “Üzeyir ömrü”, “Qayınana” və s. filmlərdə çəkilib.

**2 iyun 1979** – Tanınmış kinorejissor Hüseyn Seyidzadə (19.10.1910 – 1979) vəfat edib. “O olmasın, bu olsun”, “Koroğlu”, “Dəli Kür”, “Yenilməz batalyon”, “Qayınana” filmlərini çəkib.

**2 iyun 2013** – Azərbaycanın və SSRİ-nin Xalq rəssamı, dövlət mükafatları laureatı Toğrul Fərman oğlu Nərimanbəyov (7.8.1930 – 2013) Parisdə dünyasını dəyişib. Passi qəbiristanlığında dəfn olunub.

### Dünya

**30 may 1937** – Rusiyanın Xalq artisti Aleksandr Demyanenko (1937-1999) anadan olub. Filmləri: “Qafqaz əsiri”, “İvan Vasilyeviç peşəsini dəyişir” və s.

**31 may 1887** – Fransız şairi, Nobel mükafatı laureatı (1960) Sen-Jon Pers (Saint-John Perse; 1887-1975) anadan olub.

**31 may 1899** – Rus yazıçısı Leonid Leonov (1899-1994) anadan olub. Əsərləri: “Rus meşəsi” (roman), “Canavar”, “Çovğun” (pyeslər) və s.

**1 iyun 1804** – Rus bəstəkarı Mixail İvanoviç Qlinka (1804-1857) anadan olub. “İvan Susanin”, “Ruslan və Lyudmila” operalarının müəllifidir.

**1 iyun 1850** – Türk yazıçısı Şəmsəddin Sami (1850-1904) anadan olub. İlk türk romanı sayılan “Taaşşuk-ı Talat və Fitnat” əsərinin müəllifi, türk dili lüğətinin tərtibçisidir.

**1 iyun 1926** – Amerika aktrisası, müğənni Merilin Monro (Marilyn Monroe - əsl adı Norma Jean Mortenson; 1926-1962) anadan olub. Filmləri: “Niaqara”, “Centlmenlər sarışınları xoşlayırlar” və s.

**1 iyun 1929** – Hind aktrisası Nərgiz (əsl adı Fatimə Rəşid; 1929-1981) anadan olub. “Avara”, “Cənab 420” və s. filmlərdə yaddaqalan obrazlar yaradıb.

**2 iyun 1840** – İngilis yazıçısı, şair Tomas Hardi (Thomas Hardy; 1840-1928) anadan olub.

**Hazırladı: Vüqar ORXAN**

## AFİŞA — 31 may – 2 iyun

**Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı (Nizami küç. 95)**

| | | |
|---|---|---|
| 1 iyun | F.Şubert - “Dahi hekayəçi” (balet) | 14.00 |
| 2 iyun | “VİVA Opera” Teatrı opera solistlərinin qala-konserti | 19.00 |

**Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı (Füzuli meydanı 1)**

| | | |
|---|---|---|
| 31 may | Ə.Əmirli - “Ah bu uzun sevda yolu” | 19.00 |
| 1 iyun | “Ninza tısbağalar və Kapitan Cekin macəraları” | 11.00 |
| 2 iyun | Y.Polyakov - “Sinif yoldaşları” | 19.00 |

**Azərbaycan Dövlət Akademik Musiqili Teatrı (Zərifə Əliyeva küç. 8)**

| | | |
|---|---|---|
| 31 may | R.Ağababayev, A.Sent-Ekzüperi - “Balaca şahzadə” | 19.00 |
| 1 iyun | R.Ağababayev, A.Sent-Ekzüperi - “Balaca şahzadə” | 12.00 |
| 2 iyun | O.Kazımi, R.Heydər - “Qızıl toy” | 19.00 |

**Azərbaycan Dövlət Akademik Rus Dram Teatrı (Xaqani küç. 7)**

| | | |
|---|---|---|
| 31 may | R.Kuni – “Kişi, qadın, pəncərə... məşuq” | 19.00 |
| 1 iyun | V.Neverov – “Üç donuz balası, Qırmızıpapaq və boz canavarlar” | 12.00 |
| | P.Kalderon – “Məhəbbətlə zarafat etmirlər” | 20.00 |
| 2 iyun | V.Korkiya, A.Lavrin – “Kazanova: sevgi dərsləri” | 20.00 |

**Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı (Nizami küç. 72)**

| | | |
|---|---|---|
| 1 iyun | Y.Entin, V.Livanov - “Bremen musiqiçiləri” (rus dilində) | 12.00<br>14.00 |
| | D.Fo, P.De Filippo - “İtalyansayağı xoşbəxtlik” | 19.00 |
| 2 iyun | A.Puşkin - “Qızıl balıq” (premyera) | 12.00<br>14.00 |
| | Ə.Haqverdiyev - “Xortdanın cəhənnəm məktubları” | 19.00 |

**Azərbaycan Dövlət Kukla Teatrı (Neftçilər pr. 36)**

| | | |
|---|---|---|
| 31 may | Ə.Səmədli - “Cik-cik xanım” | 12.00, 14.00 |
| | Rus xalq nağılı - “Maşa və Ayı” (rus dilində) | 16.00 |
| 1 iyun | A.Lindqren - “Karlson” | 12.00, 14.00 |
| | A.Lindqren - “Karlson” (rus dilində) | 16.00, 18.00 |
| 2 iyun | C.Barri - “Piter Pen” | 12.00, 14.00 |
| | T.Ağayev - “Qoçaq Əhməd” (rus dilində) | 16.00, 18.00 |

**Azərbaycan Dövlət Pantomima Teatrı (Azadlıq pr. 10)**

| | | |
|---|---|---|
| 1 iyun | N.Rüstəmov - “Ağbığlılar” | 18.00 |
| 2 iyun | B.Xanızadə - “Fəlakət və insan” | 14.00 |
| | B.Xanızadə, B.Əhmədli - “Son ştrix” | 18.00 |

**Heydər Əliyev Sarayı (Bülbül pr. 35)**

| | | |
|---|---|---|
| 1 iyun | “80 dəqiqə dünya ətrafında sehrli səyahət” adlı uşaqlar üçün konsert | 13.00 |

**Azərbaycan Dövlət Akademik Filarmoniyası (İstiqlaliyyət küç. 2)**

| | | |
|---|---|---|
| 31 may | Bəstəkar Oqtay Zülfüqarovun 90 illiyinə həsr olunmuş konsert<br>Ü.Hacıbəyli adına Dövlət Simfonik Orkestri (dirijor Rauf Abdullayev) | 19.00 |
| 1 iyun | Beynəlxalq Uşaqları Müdafiə Gününə həsr olunmuş konsert<br>Dövlət Uşaq Filarmoniyasının Uşaq-gənclər xalq çalğı alətləri orkestri (dirijor Ağaverdi Paşayev) | 18.00 |

# “Tarixin şah əsərləri”

## Gürcüstan Milli Muzeyindən Azərbaycana aid nadir nümunələrin sərgisi



Mayın 27-də Heydər Əliyev Mərkəzində Gürcüstan Milli Muzeyindəki Azərbaycan və Şərq kolleksiyalarından ibarət “Tarixin şah əsərləri” adlı sərginin açılış mərasimi keçirilib.

Açılış mərasimində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib.

Tədbirdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin sektor müdiri Fuad Axundov çıxış edərək sərginin əhəmiyyətindən danışıb. Qeyd edib ki, beş il əvvəl Gürcüstan Milli Muzeyində Azərbaycana aid minlərlə tarixi, mədəni artefaktın olduğu məlum oldu. Bununla əlaqədar Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya məlumat verildi və qərara gəlindi ki, bu materiallar əsasında sərgi təşkil olunsun.

Sərginin təşkilinə görə Heydər Əliyev Fonduna təşəkkürünü bildirən Fuad Axundov bu işin ərsəyə gəlməsində Azərbaycan Mədəniyyət Nazirliyinin və Gürcüstan Milli Muzeyinin birgə xeyli iş gördüyünü vurğulayıb. Bildirib ki, sərgidə nümayiş olunan şəkillərin böyük bir qismi bərpa edilib.



Gürcüstan Milli Muzeyinin baş direktoru, akademik David Lordkipanidze qeyd edib ki, sərgidə nümayiş olunan qədim sənət nümunələrini Azərbaycan sənətçilərinin şah əsəri hesab etmək olar. O diqqətə çatdırıb ki, oktyabrın 6-dək davam edəcək sərgidə 300-dək eksponat təqdim edilir. Üç bölmədə Qacarlar sülaləsi zamanı yaradılan və toplanan qədim Azərbaycan incəsənəti, İrəvan xanlığının Sərdar sarayı kompleksindən məişət əşyaları və rəsm əsərlərinin kolleksiyası və rus fotoqraf Dmitri Yermakovun arxivindən əldə edilmiş fotosənədlər nümayiş olunur.

Sərgidə Qacarlar epoxasına aid qədim incəsənət nümunələrinin əksəriyyəti Fətəli şah dövrünə aid yağlı boya rəsmləri, miniatürlər, keramika, metal məmulatları, tekstil və xalçalarla təqdim edilir. Sərgidə Fətəli şahın özünün portreti də yer alıb.

Ekspozisiyada, həmçinin Azərbaycan panno rəngkarlığının banisi, Azərbaycan təsviri incəsənətinə böyük təsir göstərmiş ornament və portret ustası Mirzə Qədim İrəvaninin XIX əsrə aid yağlı boya ilə işlənmiş altı əsəri sərgilənir. XIX əsrin ortalarında İrəvan xanlığının Sərdar sarayının salamat qalmış orijinal əsərlərini, həmin saray kompleksinin məscid və sarayının dekorunda işlədilən plitələri yenidən boyamış şəxs məhz o olub. Ermənistan tərəfindən məhv edilmiş İrəvan xanlığının sarayından qalan nadir rəsm əsərlərində Şah Qacar, İrəvan hökmdarları və Şərq eposlarının qəhrəmanları təsvir olunub. İrəvan xanlığı ərazisində yaşamış Azərbaycan xalqına məxsus ənənəvi geyim və əşyalar, mebel nümunələri və sairdən ibarət etnoqrafik kolleksiya da ekspozisiyada yer alıb.

Sərgidə hərbi topoqraf kimi çalışan, sonra isə 1877-1878-ci illərdə Rusiya-Osmanlı müharibəsində iştirak etmiş D.Yermakovun fotoşəkillərindən ibarət kolleksiya da təqdim olunur. Müharibədən sonra Yermakov Tiflisdə foto işi ilə məşğul olub. O, İrəvan qalasının nadir tikililəri – Sərdar sarayı, məscidlər, karvansara və İrəvan şəhərinin tarixi mərkəzini təşkil etmiş orta əsrlərə aid digər binaların məhv edilməsi prosesini təfərrüatları ilə göstərən fotoşəkillər silsiləsini yaradıb.

Tədbir çərçivəsində həmçinin Gürcüstan Milli Muzeyinin baş kuratoru, tarixçi professor Eldar Nadiradzenin “İrəvan xanlığı: tarixi və mədəni profili” kitabının təqdimatı keçirilib.

Müəllif bildirib ki, Azərbaycan, ingilis və rus dillərində nəşr olunan kitabda İrəvan xanlığının tarixi, hökmdarları, İrəvan qalası uğrunda aparılan döyüşlər, xanlığın Azərbaycan tarixində oynadığı rol barədə müfəssəl məlumatlar əksini tapıb. Kitabda İrəvan xanlığının tarixindən bəhs edən foto və rəsm əsərləri, Gürcüstan Milli Muzeyində saxlanılan nadir eksponatların şəkilləri yer alıb.

# Rəssamlarımızın əsərləri Luvr muzeyində



Parisdəki Luvr muzeyinin Karusel sərgi salonunda növbəti “Art Shopping” Beynəlxalq müasir incəsənət sərgisi açılıb. Sərgidə azərbaycanlı rəssamlar Məryəm Ələkbərli, Əsmər Nərimanbəyova, Ziba Əliyeva, Səfərdə Məmmədova və Sahib Əsədlinin əsərləri də nümayiş etdirilir.

İstedadlı gənc rəssam Məryəm Ələkbərlinin əsərlərinin Luvr muzeyinin Karusel salonunda sərgilənməsi artıq ənənəyə çevrilib. Bu dəfə rəssamın 25 əsərindən ibarət “Şərq nağılları” adlı yeni kolleksiyası sənətsevərlərə təqdim olunub. Görkəmli Azərbaycan rəssamı Toğrul Nərimanbəyov və tanınmış heykəltəraş Elmira Hüseynovanın ailəsində dünyaya göz açmış, rənglər dünyasında böyümüş Əsmər Nərimanbəyovanın yaradıcılığına ailəsindəki mühit böyük təsir göstərib. Əməkdar rəssamın əsərləri dünyanın müxtəlif ölkələrində sərgilənib. O, azərbaycanlı gənc rəssamların əsərlərinin beynəlxalq sərgilərdə nümayiş etdirilməsi, tanınması üçün əlindən gələni əsirgəmir.

Ziba Əliyeva artıq bir neçə ildir “Art Shopping” sərgisində iştirak edir. O, əsərlərində neftdən boya kimi istifadə edir.

Son illər “Art Shopping” sərgisində azərbaycanlı rəssamların uğurlu iştirakı ənənəyə çevrilib. Onların əsərləri ziyarətçilər tərəfindən maraqla qarşılanır.

# “Mövsümün sonu” Rusiyaya gedir

Azərbaycanlı rejissor Elmar İmanovun “Mövsümün sonu” filmi iyunun 14-21-də Rusiyanın İvanovo şəhərində keçiriləcək Andrey Tarkovski adına “Zerkalo” XIII Beynəlxalq Kinofestivalında nümayiş olunacaq.

Festivalın müsabiqə proqramına 9 film təqdim olunub. Festivalda Fransa, Niderland, Almaniya, Rusiya, İsveçrə və digər ölkələrin filmləri də nümayiş olunacaq. “Mövsümün sonu” Azərbaycan, Almaniya və Gürcüstan kinematoqrafçılarının birgə istehsalıdır.

# Türk dünyasının rəssamları Oş şəhərində görüşüblər



Xəbər verdiyimiz kimi, TÜRKSOY-un ənənəvi layihələrindən olan “Türk dünyası rəssamlar görüşü” bu il “Türk dünyasının mədəniyyət paytaxtı” olan Qırğızıstanın Oş şəhərində təşkil edilib.

25-30 may tarixində keçirilən incəsənət görüşünə Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə, Türkmənistan, Şimali Kipr, Saxa-Yakutiya və Başqırdıstandan (Rusiya Federasiyası) rəssamlar qatılıb. Azərbaycanı bu tədbirlərdə rəssam Pərviz Ələkbərli təmsil edib.

Oş şəhər merinin müavini Nurbek Kadırov rəssamları qəbul edib. O, “Türk dünyasının mədəniyyət paytaxtı” ili çərçivəsində keçiriləcək tədbirlər haqqında məlumat verib, Oş şəhərinin tarixi, mədəni irsi haqqında söhbət açıb.

Türk dünyasının fırça ustaları “Qədim Oş şəhəri XX əsr rəssamlarının gözü ilə” adlı plenerdə də iştirak edərək şəhərin tarixi-mədəni irsini, mənzərələrini əsərlərində əks etdiriblər. Plener iştirakçılarına rəssamlıq dəstləri hədiyyə edilib.

“Türk dünyası rəssamlar görüşü”nün sonunda çəkilən əsərlərin sərgisi açılıb.

**MEHPARƏ**

# “Qızıl palma budağı”nı “Parazitlər”ə verdilər

Mayın 14-dən 25-dək davam edən 72-ci Kann kinofestivalının baş mükafatını Cənubi Koreyadan olan rejissor Bong Joon-Ho qazanıb. Onun “Parazitlər” filmi favoritlər sırasında göstərilməsə də, meksikalı rejissor Alexandro Qonsales İnarritunun sədrlik etdiyi jüri tərəfindən rəğbətlə qarşılanıb.

“Qızıl palma budağı”nı qalib rejissora məşhur fransalı aktrisa Katrin Denev təqdim edib. Ekran əsəri iztirablar içində yaşayan yoxsul bir Koreya ailəsindən bəhs edir.

“Gümüş palma budağı” – jürinin Qran-pri mükafatı isə fransalı gənc rejissor Mati Diopun “Atlantika” filminə verilib.

Fransız Ladj Linin “Səfillər” və braziliyalı rejissorlar Kleber Mendosa və Xuliano Dornelessin “Bakurau” filmləri jürinin xüsusi mükafatını qazanıb.



Ən yaxşı qadın roluna görə mükafat Emili Biçemə, kişi roluna görə isə Antonio Banderasa verilib. Belçikalı Dardenne qardaşlarının “Gənc Əhməd” filmi “Ən yaxşı rejissor işi” mükafatı ilə təltif olunub.

**İLONA**

# Heydər Əliyev Sarayında konsert proqramları

Mayın 31-də Heydər Əliyev Sarayı və ARB TV-nin birgə təşkilatçılığı ilə “Söhbət var” adlı musiqili-əyləncəli konsert proqramı keçiriləcək.

Əməkdar artist Dilarə Əliyevanın aparıcılığı ilə keçiriləcək konsertdə yumor dolu proqram tamaşaçıları gözləyir. Konsertdə müğənnilər Elza Seyidcahan, Nadir Qafarzadə, Pərviz Bülbülə və Türkan, Vasif Məhərrəmli, Xatun, Roza Zərgərli, Namiq Qaraçuxurlu, Rauf və başqaları iştirak edəcəklər.

* * *

İyunun 25-də Heydər Əliyev Sarayında Xalq artisti, bəstəkar Oktay Kazıminin mahnılarından ibarət konsert proqramı təqdim olunacaq.

Gecədə xalq artistləri Azər Zeynalov, Samir Cəfərov, Zaur Rzayev, Nazpəri Dostəliyeva, Mələkxanım Əyyubova, əməkdar artistlər Teymur Əmrah, Zaur Əmiraslanov, Arzu Əliyeva, İlkin Əhmədov, Zakir Əliyev, Aybəniz Haşımova, Lalə Məmmədova və başqaları iştirak edəcəklər. İfaçıları Cavad Tağızadənin dirijorluğu ilə Azərbaycan Televiziya və Radiosunun Tofiq Əhmədov adına Estrada simfonik orkestri və Əhsən Dadaşov adına “Xatirə” Xalq çalğı alətləri ansamblı müşayiət edəcək.

Proqramda unudulmaz bəstəkarın “Əlvida”, “Bakının qızları”, “Qocalır anam”, “Tələsin, insanlar”, “Qaytar eşqimi”, ”Cavanlığım” və digər sevilən mahnıları səslənəcək.

# İspaniya universitetində Nəsiminin 650 illiyi qeyd edilib

İspaniyanın Alkala de Enares Universitetində “Erasmus+” proqramı üzrə təhsil alan Bakı Ali Neft Məktəbinin tələbələri tərəfindən bu ölkədəki səfirliyimizin dəstəyi ilə dahi Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illiyi ilə əlaqədar tədbir təşkil olunub.



Tələbələr Nəsiminin həyat və yaradıcılığı barədə tədbir iştirakçılarını ətraflı şəkildə məlumatlandıraraq, diqqətə çatdırıblar ki, Azərbaycan Prezidentinin sərəncamı ilə 2019-cu il ölkəmizdə “Nəsimi ili” elan edilib.

Tədbir zamanı yaradılmış guşədə ölkəmizin mədəniyyəti, gözməli-görməli yerləri ilə bağlı materiallar nümayiş etdirilib, habelə dahi şairin 650 illik yubileyinə həsr olunmuş, səfirlik tərəfindən çap etdirilmiş buklet və İspaniyada dövriyyəyə buraxılmış xüsusi poçt markalarının təqdimatı keçirilib. İştirakçılara milli şirniyyatlarımız və Azərbaycan çayı təqdim olunub.

# Lüksemburqdakı Nizami abidəsi önündə xatirə tədbiri

Lüksemburq şəhərində Azərbaycanın Belçika və Lüksemburqdakı səfirliyi, Rusiya Federasiyasının Lüksemburqdakı səfirliyi və bu ölkədə fəaliyyət göstərən “Qarabağ” Mədəniyyət Cəmiyyətinin birgə təşkilatçılığı ilə böyük Azərbaycan mütəfəkkiri və şairi Nizami Gəncəviyə həsr olunmuş tədbir keçirilib.



Tədbir Nizaminin Rusiyanın (keçmiş SSRİ-nin) Lüksemburqdakı səfirliyinin ərazisində yerləşən heykəli önündə keçirilib.

Azərbaycan səfiri Fuad İsgəndərov çıxış edərək Nizami Gəncəvinin yaradıcılığından, bəşəri dəyərləri, sülh və humanizmi təbliğ edən əsərlərindən söz açıb. Diqqətə çatdırılıb ki, Nizaminin 1980-ci illərin əvvəllərində Azərbaycan tərəfinin təşəbbüsü ilə hazırlanmış abidəsi keçmiş Sovet İttifaqının Benilüks ölkələrində mədəniyyət günləri çərçivəsində ucaldılıb. Ümummilli lider Heydər Əliyev 1996-cı ildə Lüksemburqa səfəri zamanı abidəni ziyarət edib, onun tarixi və siyasi əhəmiyyətini yüksək qiymətləndirib.

Rusiya səfiri Viktor Sorokin artıq 4 ildir ki, ənənəvi olaraq keçirilən bu anım tədbirinin Rusiya və Azərbaycan arasında həmrəyliyin nümunəsi olduğunu vurğulayıb.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Moskva pr, 1D.
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 530-34-38 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya № AB** 022279
**İndeks:** 0187

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində səhifələnib,
“Azərbaycan” nəşriyyatında çap olunub.
**Tiraj:** 5245
**Sifariş:** 1843
**Buraxılışa məsul:** Fariz Yunisli
Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.